HƏFTƏ İÇİ

MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET

www.hafta.az

№ 30 (3446) Cümə axşamı / 4-10 avqust 2022-ci il Qiyməti 40 qəpik

# "Qisas" əməliyyatı

***Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvləri 10 noyabr 2020-ci il tarixli Bəyanatın müddəalarını kobud surətdə pozaraq avqustun 3-də Azərbaycan Ordusunun bölmələrinə qarşı terror-təxribat əməli törədib. Terror-təxribat nəticəsində hərbi qulluqçumuz əsgər Kazımov Anar Rüstəm oğlu şəhid olub. Bu barədə Müdafiə Nazirliyi məlumat yayıb. Bundan əlavə, qeyri-qanuni erməni silahlı dəstələrinin ünsürləri Kəlbəcər və Laçın rayonlarının ərazisini əhatə edən dağ silsiləsində yerləşən Qırxqız yüksəkliyini ələ keçirmək və orada yeni döyüş mövqelərini qurmağa cəhd göstərib. Azərbaycan Ordusu bölmələrinin keçirdiyi "Qisas" cavab əməliyyatı nəticəsində Qırxqız yüksəkliyi, həmçinin Kiçik Qafqaz dağ silsiləsinin Qarabağ silsiləsi boyu Sarıbaba və bir sıra digər əhəmiyyətli hakim yüksəkliklər nəzarətə götürüb. Hazırda bölmələrimiz tərəfindən əlverişli hədlərdə yeni mövqelərin qurulması və təminat yollarının çəkilməsi üzrə mühəndis işləri görülür.***



## Düşmənə ağır zərbə vuruldu

Əməliyyat çərçivəsində qeyri-qanuni erməni silahlı ünsürlərinin bir neçə döyüş mövqeyi dağıdılıb, keçmiş Ağdərə rayonunun Yuxarı Oratağ yaşayış məntəqəsindəki hərbi hissəyə havadan zərbə endirilib. Nəticədə, qanunsuz erməni silahlılarının canlı qüvvəsi məhv edilib və yaralanıb, həmçinin bir neçə D-30 haubitsası, hərbi nəqliyyat vasitələri və çoxlu sayda döyüş sursatları məhv edilib. Azərbaycan Respublikası dəfələrlə bildirmişdir ki, üçtərəfli bəyanata zidd olaraq Ermənistan silahlı qüvvələrinin və qanunsuz erməni silahlı birləşmələrinin Rusiya Federasiyası sülhməramlılarının müvəqqəti yerləşdirildiyi Azərbaycan ərazilərində mövcudluğu təhlükə mənbəyi olaraq qalır. Həmin ərazilərin demilitarizasiyası, Ermənistan qoşunlarının oradan tam çıxarılması və qanunsuz erməni silahlı ünsürlərinin tərksilah edilməsi mütləq şəkildə labüddür.

Müdafiə Nazirliyi bəyan edir ki, Azərbaycan Respublikasının Konstitusiyasını rəhbər tutaraq bundan sonra ölkəmizin suveren ərazilərində törədiləcək istənilən terror və təxribatın qarşısı qətiyyətlə alınacaq və əks cavab tədbirləri daha da sarsıdıcı olacaq. Bu, Azərbaycan Müdafiə Nazirliyinin rəsmi məlumatı idi. Dünən gün ərzində yaşananlar əslində heç də bir günün işi deyil. Vətən Müharibəsi başa çatdıqdan sonra Azərbaycan dəfələrlə bölgədə silahsızlanma və qanunsuz hərbi birləşmələrin ləğvinə cavabdeh olan Rusiya tərəfinə xəbərdarlıq edib. Bu mesajlar ən yüksək səviyyədə qarşı tərəfin diqqətinə çatdırılıb. Lakin 30 il danışıqlar prosesində olduğu kimi, ermənilər havadarların himayəsi altında yenə də, əldə olunan razılaşmaları kobud şəkildə pozaraq təxribatçı əməllərini davam etdirirdilər.

■ **Hərbi təhlilçi Alp Arslan İmamqulu məsələyə Ali Baş Komandan, Prezident İlham Əliyevin bir qədər əvvəl müsahibələrin birində dediyi fikirlərə istinad edərək münasibət bildirib.**

"Ali Baş Komandanın belə bir müsahibəsi olmuşdu: "Bizim doğma torpağımız Zəngəzurdur, bizim doğma torpağımız İrəvandır, Göyçə mahalıdır. Biz qayıdacağıq!..". Hərbi təhlilçi mövcud durum fonunda hesab edir ki, artıq bunun zamanı gəlib. Düşmən hər tərəfdə həyasızcasına öz revanşist əməllərinə davam etməkdədir. A.A.İmamqulu bu böyük qaydışın bir neçə mərhələdə mümkün olma ehtimallarını önə çəkib. "Birinci növbədə ərazi daxilində qalan terrorçu qruplar tam olaraq təmizlənməlidir. Sonrakı mərhələdə Laçın yolunun bağlanması və 1920-ci il xəritəsinə müvafiq olaraq sərhədlərimizin təktərəfli şəkildə delimitasiya və demarkasiya prosesi yekunlaşdırılmalıdır.

Dahasonrakı mərhələdə isə sərhədimizdə anti-terror əməliyyatlarına hazır olacaq gərəkli fəaliyyətlərin tənzimlənməsi həyata keçirilməlidir. Bunları etməsək, ötən tarixdən bu günə qədər kiçilə-kiçilə gəlmiş Azərbaycan daha da çətin vəziyyətə düşə bilər". A.A.İmamqulu bildirir ki, 2020-ci ildə torpaqlarımızı işğaldan azad etsək də, bu gün döyüş sahəsində əldə olunmuş zəfərimizi masada, siyasi oyunlar ilə başqa istiqamətə yönləndirmək istəyənlər var. "Azərbaycan heç bir şəkildə geriyə addım atmayacaq və atmamalıdır. Biz qüdrətli dövlətlər qurmuş, atalarımızdan miras aldığımız Azərbaycanı yenidən bərpa etmək istiqamətində addımlar atmalıyıq".

■ **Məsələyə Xarici İşlər Nazirliyi də sərt reaksiya verib. Hafta.az XİN-ə istinadən xəbər verir ki, Azərbaycan tərəfi dəfələrlə, Ermənistanın 10 noyabr 2020-ci il tarixli üçtərəfli bəyanatla üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmədiyini və qanunsuz erməni silahlı dəstələrinin hələ də Azərbaycan ərazisindən çıxarılmadığını bəyan edib.** "3 avqust tarixində baş vermiş qanlı insident bir daha Ermənistanın üçtərəfli razılaşmanı kobud şəkildə pozduğunu, eyni zamanda iki dövlət arasında münasibətlərin normallaşması istiqamətində səylərə xələl gətirdiyini nümayiş etdirir. Bu, həmçinin Ermənistanın beynəlxalq vasitəçilərin səylərinə hörmətsizliyinin göstəricisidir. Azərbaycan ərazisində baş verən insidentin bütün məsuliyyəti qonşu dövlətin torpaqlarında qanunsuz silahlı birləşmələrini hələ də çıxarmayan Ermənistanın siyasi və hərbi rəhbərliyinin üzərindədir. Azərbaycan ərazilərinin təhlükəsizliyi, sərhədlərinin bütövlüyünün təmin edilməsi üçün tərəfimizdən bütün müvafiq tədbirlər bundan sonra da davam etdiriləcəkdir. Allah şəhidimizə rəhmət eləsin!", - qeyd olunub.

Baş Prokurorluq qanunsuz erməni silahlı dəstələrinin atəşkəsi pozması nəticəsində əsgərimizin şəhid olması ilə bağlı məlumat yayıb. Səh. 6

"

*Birinci növbədə ərazi daxilində qalan terrorçu qruplar tam olaraq təmizlənməlidir*

*Sülhməramlılar öz çətirləri altında atəşkəsin pozulması üçün ermənilərə şərait yaradırlar*

*Azərbaycan Ordusuna atəş açanlar həbs edilməli, Azərbaycan hüquq - mühafizə orqanlarına təhvil verilməlidir*

MÜSAHİB

# İran Azərbaycanla Türkiyənin bir arada olmasını istəmir

***Neçə vaxtdır İraqda daxili siyasi böhran hökm sürür, parlament binasını ələ keçirən Muktəda əs-Sədrin tərəfdarları qanunverici orqanın fəaliyyətini iflic ediblər. Ölkədə tərəflərin hər birini razı salacaq hökumət qurula bilmir. Elə Sədr tərəfdarlarını çilədən çıxaran da məhz bu faktdır. Yeri gəlmişkən, sonuncu seçki nəticəsində palamentdə ən çox kürsü qazanan Sədr əvvəl qurulacaq hökumətin tərkib və forması haqda təkliflər verirdisə, indi artıq konstitusiyanın, dövləti idarəetməninin formasının dəyişdirilməsindən dəm vurur. Ümumiyyətlə, Azərbaycanla tarixən sıx əlaqələrə malik olan bu ölkədə nələr baş verir?***



**Riyaz Sarıkahya,**
İraqın keçmiş millət vəkili, Türkməneili Partiyasının sədri

*Türkiyə ilə Azərbaycan, hətta Gürcüstan və Ermənistan arasında əməkdaşlığın güclənməsi, sərbəst keçid azadlığının olması ən yaxşı həll yoludur*

Səh. 3

MÜSAHİB



**Elşad Məmmədov,**
professor, iqtisadçı ekspert

"

■ İşğaldan azad bölgələrdə, ilk növbədə, işgüzar mühit formalaşdırılmalıdır, investisiyalar, iqtisadiyyatda pul kütləsi artmalıdır

■ İctimai müzakirələr təşkil olunsun Böyük Qayıdış layihələri ilə bağlı

■ Faktiki olaraq biz iqtisadiyyatımızda alıcı bazarını deyil, bir çox hallarda satıcı bazarını müəyyənləşdirmişik Səh. 6

GÜNÜN FOTOSU...



Laçın dəhlizinə alternativ yolun tikintisi yekunlaşır

GÜNÜN SİTATI

"*Ermənistan tərəfindən götürülmüş öhdəliklərin yerinə yetirilməməsinin bölgədə yaşanan gərginliyin əsas səbəbidir*"



**Ceyhun Bayramov,**
Azərbaycanın xarici işlər naziri

KARİKATURA




"Dəmir Yumruq" yerindədir

"

# Ukraynadan nə qədər taxıl ala bilərik?

**Akif Nəsirli,**
Liberal İqtisadçılar Mərkəzinin rəhbəri

Azərbaycan hər vəchlə istənilən ölkədən, istənilən qiymətə taxıl idxal edib ehtiyatlarını tam şəkildə doldurmalıdır. Səh. 3

STATİSTİKA



■ **Avqustun 1-nə olan göstəricilərə əsasən, Azərbaycanda pul bazası 16 milyard 120,4 milyon manat təşkil edib.**

Bu, iyulun 1-i ilə müqayisədə 3 % çoxdur. Pul bazası ilin əvvəlinə nisbətən 10,1 % azalıb, son 1 ildə isə 13,4 % artıb.

Əhalinin banklardakı əmanətlərinin məbləği isə il ərzində 22,7 faiz artaraq 2022-ci il iyun ayının 1-nə milli valyuta ekvivalentində 10593,2 milyon manat təşkil edib.



Səh. 7

# Payızda yeni inflyasiya dalğası

## PREZİDENTİN İŞ GÜNÜ



**Prezident İlham Əliyev Biləsuvar rayonunun Əliabad-Xırmandalı-Bəydili avtomobil yolunun tikintisi ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb.**

Sərəncama əsasən, on doqquz min nəfər əhalinin yaşadığı 3 yaşayış məntəqəsini birləşdirən Əliabad-Xırmandalı-Bəydili avtomobil yolunun tikintisi məqsədilə “Azərbaycan Respublikasının 2022-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü”nün 1.26.18-ci yarımbəndində göstərilmiş məbləğin 5,2 milyon (beş milyon iki yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılıb.

# Prezident bir sıra açılışlarda iştirak edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva “Grand-Agro İnvitro” Məhdud Məsuliyyətli Cəmiyyətinin müəssisəsinin fəaliyyəti ilə tanış olublar və “Azbadam” Məhdud Məsuliyyətli Cəmiyyətinin badam emalı zavodunun açılışında iştirak ediblər.**

İqtisadiyyat naziri Mikayıl Cabbarov və “Grand-Agro İnvitro” MMC-nin icraçı direktoru Taleh Zeynalov dövlət başçısına və birinci xanıma müəssisənin fəaliyyəti barədə məlumat verdilər.

İqtisadiyyatın şaxələndirilməsi, xüsusilə qeyri-neft sektorunun inkişafı ilə bağlı qarşıya qoyulan prioritetlər uğurla həllini tapır. Eyni zamanda, qeyri-neft sektorunda kənd təsərrüfatı məhsullarının payı artır. Bu isə ərzaq təhlükəsizliyinin təmin olunması və idxaldan asılılığın aradan qaldırılması deməkdir.

Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın fəaliyyəti ilə tanış olduqları “Grand-Agro İnvitro” Məhdud Məsuliyyətli Cəmiyyətinin müəssisəsi və “Azbadam” Məhdud Məsuliyyətli Cəmiyyətinin açılışı olan badam emalı zavodu məhz qeyri-neft sektoru və kənd təsərrüfatının inkişaf konsepsiyasının uğurla reallaşdırılmasının nəticəsidir.

Prezident İlham Əliyev: Son vaxtlar fındıqçılıq Azərbaycanda çox inkişaf edir. Fındıq bağlarının sahəsini iki dəfədən çox artırmışıq. Fındıq ixracına görə biz indi dünyada üçüncü yerdəyik. Amma badam istehsalı, əfsuslar olsun ki, Azərbaycanda çox aşağı idi və daxili tələbatı ödəmirdi. Ona görə indi badamçılıqla da ciddi məşğul olmaq lazımdır. Bu meyvə sortları yerli sortlardır, yoxsa xarici sortlardır?

Taleh Zeynalov: Həm xarici sortlarımız, həm yerli sortlarımız var. Məqsədimiz də odur ki, yerli sortların içərisində məhsuldar və təbiətə uyğun çeşidləri seçib seleksiya yolu ilə onların artırılmasına nail olaq.

Prezident İlham Əliyev: Burada çox vacib məsələ odur ki, əlbəttə, intensiv bağçılıq daha çox məhsulun həcminə istiqamətləndirilir. Amma bizim xüsusiyyətimiz və üstünlüyümüz odur ki, - hər zaman belə olub, bu gün də belədir, - bizdə yetişdirilən meyvə-tərəvəz təbiidir. Yəni, orqanikdir və onun xüsusi dadı var. Burada yerli sortlara daha çox üstünlük verilməlidir. Yəni, kəmiyyət dalınca getsək, bizim xüsusi dad verən o meyvələri itirə bilərik. Buna xüsusilə diqqət yetirin. Çünki bizim istər narımız olsun, almamız olsun, pomidorumuz olsun, xurmamız olsun, doğrudan da xüsusi dada malikdir. Biz onu itirməməliyik.

Qeyd edək ki, 2017-ci ildə fəaliyyətə başlayan “Grand-Agro İnvitro” MMC məhsuldar meyvə və digər bitki tingləri yetişdirməklə məşğuldur. Müəssisənin tətbiq edilən müasir texnologiyalar sayəsində ənənəvi üsullarla çoxaldılması mümkün olmayan, həmçinin yerli və xarici bazarda rəqabətədavamlı yüksəkkeyfiyyətli məhsullar yetişdirmək imkanları mövcuddur. Növ seçimi bazarın tələbatı və müştərinin sifarişinə uyğun olaraq müəyyən edilir. “İnvitro” layihəsinə yatırılan investisiyanın ümumi məbləği 21 milyon manatdır.

İstixanalar müasir damcı üsulu və sisləmə sistemi ilə suvarılır. Müəssisənin beynəlxalq standartlara tam cavab verən laboratoriyası isə ən müasir texnologiyalarla təchiz olunub. İnkubasiya otaqlarının geniştutumlu olması sayəsində laboratoriya il ərzində 4 milyon ədəd müxtəlif cins və sort yetişdirmək imkanına malikdir. Müəssisədə 84 nəfər daimi işlə təmin olunub.

HƏFTƏ İÇİ
MÜSTƏQİL İCTİMAİ-SİYASİ QƏZET
Təsisçi və
baş redaktor:
Sevinc Seyidova
Qəzet Mətbuat və İnformasiya Nazirliyində qeydə alınıb (lisenziya 022303), “Həftə içi”nin kompüter mərkəzində yığılır, səhifələnir və “CBS” mətbəəsində çap olunur.
Müəllifin mövqeyi redaksiyanın mövqeyi ilə üst-üstə düşməyə bilər.
Qəzet çərşənbə axşamı, cümə axşamı və şənbə günləri nəşr edilir.
Qəzet 22 iyul 1998-ci ildən çıxır. Tiraj -2000
“Həftə içi” nəşriyyat MMC, VÖEN 1600386721, "KAPITALBANK" ASC
1 saylı Səbail filialı Kod: 200059 VÖEN: 9900003611
M/h: AZ37NABZ01350100000000001944
S.W.İ.F.T.Bik AİİBAZ 2X
Ünvan:
Azərbaycan, Bakı şəhəri, H.Zərdabi, 71A mənzil -10
Tel.: - 433-27-63.
E-mail: hafta-ici@rambler.ru,
web-sayt: www.hafta.az

# Qazilər Ali Baş Komandana minnətdardır

***Prezident İlham Əliyevin müharibə əlillərinə xüsusi qayğısını əks etdirən növbəti sosial dəstək proqramına start verilib. Məlum olduğu kimi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən Nazirlər Kabinetinin yeni təsdiq etdiyi Qaydaya uyğun olaraq, Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmələrin verilməsinə başlanılıb ki, bu da ölkə ictimaiyyəti, xüsusilə də Şəhid ailələri, qazilər, əlillər tərəfindən böyük rəğbətlə qarşılanır.***



## Gündəm

■ **Tovuz rayonunun Alakol kəndindən olan II Qarabağ savaşının Şəhidi İbad Qasımovun ailəsinə 11 manat birdəfəlik müavinət verilib.**

Bu barədə hafta.az-a açıqlama verən Şəhidin qardaşı Nizami Qasımov bildirib ki, birdəfəlik müavinət anasına təqdim olunub. Şəhid qardaşı bunu Prezidentin - dövlətin onların timsalında bütün Şəhid ailələrinə verdiyi yüksək dəyər kimi qiymətləndirib. N.İsmayılov bildirib ki, Prezident daim Şəhid ailələrinə, qazilərə, əlillərə diqqət və qayğısını əsirgəmir.

“Yaxşı nümunədir. İnanıram ki, şəhid ailələrinin sosail vəziyyətini yaxşılaşdıracaq belə addımlar davamlı olacaq. Lakin müharibədə iştirak edən, yaralanan, əlil, Şəhid, qazi olan döyüşçülərə bu cür humanist münasibət bütün məmurlar tərəfindən olsa yaxşı olar. Rayonlarda məmurlar da Prezidentdən nümunə götürməlidirlər”.

■ **Qarabağ Regional Təhsil İdarəsi üzrə Füzuli Rayon Təhsil Sektorunun metodisti, I Qarabağ qazisi II qrup əlil Elman Rzayev hafta.az-a açıqlamasında bildirib ki, Ali Baş Komandan həmişə dediyi sözün üstündə durub və inanıram ki, bundan sonra da duracaq.**

“Onun bir əmri ilə 7-dən-77-yə qədər hər kəs bir müsəlləh əsgər kimi döyüşə getməyə hazır idi. Dəmir Yumruq buna şahiddir. Bildirmək istəyirəm ki, hörmətli Prezident, cənab Ali Baş Komandan daim Şəhid ailələrinə və qazilərə öz qayğısını əsirgəməyib. Onlar bütün sahələrdə diqqət mərkəzində olublar. Biz bu gün də özümüzü Ali Baş Komandanın bir əsgəri hesab edirik və bundan sonra da onun əsgəri olacağıq. Yaşasın Azərbaycan xalqı və onun Prezidenti İlham Əliyev. Qarabağ Azərbaycandır!”. E.Rzayev bildirir ki, Birinci Qarabaq müharibəsində yaralanıb, ona II qrup əlillik dərəcəsi təyin olunub. Dövlət tərəfindən avtomobillə, evlə təmin olunub. Hazırda isə Qarabağ Regional Təhsil İdarəsi üzrə Füzuli Rayon Təhsil Sektorunda metodist işləyir.

“Bu cür humanist addımlar Vətən uğrunda canını, qanını verən insanlara bir dəstək olmaqla yanaşı, gələcək üçün çox yüksək örnəkdir, nümunədir. Hər bir gənc görür ki, o, Vətəni qoruduğu kimi, dövlət də onu sevib qoruyur və qoruyacaq”.

■ **“Mən bu gün də özümü Vətənimin patriot əsgəri bilirəm və bu gün də bir ayağımda, qolumda, başımda olan qəlpə yaralarına baxmayaraq, Ali Baş Komandan əmr versə ki, dur get vuruşmağa, can-başla gedərəm.** Bunu hafta.az-a açıqlamasında I Qarabağ qazisi, II qrup müharibə əlili Saleh Babayev bildirib. Qazi əlilliyə görə müavinət və Prezident təqaüdü alır. Deyir ki, Prezidentin Sərəncamına əsasən 2021-ci ildə ona mənzil də verilib.

Bu günə qədər hər hansı bir məsələ ilə bağlı heç bir dövlət orqanına müraciət etmədiyini deyən qazimiz, bunun üçün elə bir istəyinin, şəraitin yetişmədiyini qeyd edib. Şükür edir ki, Vətən uğrunda savaşıb, şükür edir ki, bu gün onu dəstəkləyən insanlar olub, var. S.Babayev bildirir ki, o, birdəfəlik ödəmələrlə bağlı bu günlərdə Yasamal ərazisində Dövlət Sosial Fonduna müraciət edib. DOST Mərkəzindən ona deyilib ki, birdəfəlik ödəmə ilə bağlı adı sistemdədir. Ayrılan vəsaiti almaq üçün ABB banka gedib, oradan hələ ki, vəsaitin banka daxil olmadığı bildirilib.

1992-ci ildən 1994-cü il yanvarın 6-na qədər Laçın-Füzuli istiqamətlərində döyüşlərdə iştirak edən S.Babayev Füzuli rayonunun Haramı düzündə başından, kürəyindən güllə yarası alıb. Deyir ki, 721-ci hərbi batalyonda tank komandiri olub. O, tank komandri Ayvat Vəliyevin adını çəkib. Eyni zamanda onunla birgə döyüşlərdə iştirak edən, şəhadətə qovuşan Şəhidlər - Cavid Həsənovu, Kamandar Quliyevi, Kəmaləddin Ağayevi xatırlamağı özünə borc bilib.

“Laçının Dilican, Yuxarı Fərəcan, Aşağı Fərəcan istiqamətlərində bir çox döyüşlərdə iştirak etmişəm. Füzulidə bütün döyüşlərində olmuşam. 1994-cü il yanvarın 8-də yaralanmışam. Allah elimizdən razı olsun”.

44 günlük Zəfər savaşından qürurla danışan S.Babayev deyir ki, I Qarabağ savaşında aldığı yaralara baxmayaraq, II Qarabağ döyüşlərinə də qatılmaq istəyib. Yasamal Rayon Hərbi Komissarlığı onun döyüşə getməsini lazım bilməyib.

“Lazım bilsəydilər döyüşə gedərdim. Vətəndən ötrü canını verməkdən gözəl xoşbəxtlik varmı?”.

■ **“Vətənpərvərliyin Təbliğinə Dəstək” İctimai Birliyinin sədri Şəmistan Əlizamanlı hafta.az-a açıqlamasında bildirib ki, Prezident İlham Əliyevin müharibə əlillərinə xüsusi qayğısını əks etdirən növbəti sosial dəstək proqramı yüksək əhəmiyyətə malikdir.**

Onun sözlərinə görə, bu addım yalnız 44 günlük Vətən Müharibəsi deyil, Birinci Qarabağ müharibəsinin iştirakçılarına da dövlət qayğısının göstəricisidir.

Ş.Əlizamanlı bildirib ki, dövlətin apardığı bu siyasət bir daha hər kəsə bəyan edir ki, Vətən uğrunda canını, qanını verən heç kəs unudulmur, unudulmayacaq!

“Təbii ki, Prezidentin bu addımı gözəl bir nümunədir, alqışlanmalıdır, müsbət dəyərləndirirəm. Əslində, uzun illərdir ki, qazilərimiz bunu gözləyirdilər. Bu onların haqqıdır. Əlbəttə onlar bu diqqət və qayğıya görə sevinirlər. Düşünürəm ki, bundan sonra da dövlətimizin qazilərə qayğıları davamlı olacaq.

Ş.Əlizamanlının sözlərinə görə, Şəhid ailəsinə, Qazisinə, müharibə iştirakçısına, veterana göstərilən hər bir qayğı, gələcəyin güclü, qətiyyətli, cəsur əsgərinin yetişməsinə vəsilə olan, insanlara ruh verən bir əməl, nümunə olmaqla yanaşı, Vətənin öz əsgərinə “Oğul” deməsidir. Bu, ən böyük vətənpərvərlik təbliğatının yeni atılan bünövrəsidir.

Ş.Əlizamanlı hesab edir ki, heç bir döyüşçü dövlətin diqqətindən kənarda qalmamalıdır. Hər bir məmur öz müharibə veteranına, müharibə iştirakçısına, qazisinə, Şəhidinə ehtiramla yanaşmalı, onun hansısa problemlə üzləşməsinə yol verməməlidir. Çünki vətən elə onlardan başlayır. Bütövlükdə cəmiyyətimiz öz döyüşçüsünə hörmətlə yanaşmalıdır.

■ **“Azərbaycan Vətən Müharibəsi Veteranları” ictimai birliyinin sədri Füzuli Rzaquliyev hafta.az-a açıqlamasında bildirib ki, bu günlər I Qarabağ iştirakçılarına, Əlillərə, Şəhid ailələrinə, müharibə veteranlarına birdəfəlik 11 min manat verilməsini dövlətin qayğısı, uğurlu siyasətidir.** I Qarabağ döyüşçüsü hesab edir ki, cənab Prezident daim bu cür humanist addımlar atır, fərmanlar verir. Qazilərin belə bir dəstəyin olacağını çoxdan gözlədiklərini deyən F.Rzaquliyev hər bir məsələnin zamanla öz həllini tapmasına şükr etdiklərini bildirib.

“Dövlət sosial siyasətini düzgün aparır. Qazi və şəhid ailələrinə hər zaman diqqət var, belə də olmalıdır. Ordumuz həmişə yüksək diqqət və qayğı ilə əhatə olunmalıdır və olunur. Artıq illərdir ki, dövlət tərəfindən Şəhid ailələrinə, qazilərə, Qarabağ döyüşçülərinə, əlillərə evlər, minik avtomobilləri verilir. Müharibə əlillərinin uşaqlarına uşaq pulu verilir. Maraqlıdır ki, bu məsələ heç bir yerdə deyilmir”. F.Rzaquliyev hesab edir ki, belə humanist addımlar dayanıqlı, davamlı olmalıdır.

■ **Azərbaycanda Minadan Zərərçəkənlərin Assosiasiyası İctimai Birliyinin sədri, Qarabağ qazisi Rey Kərimoğlu hafta.az-a açıqlamasında deyib ki, birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmələrin verilməsi Prezident İlham Əliyevin növbəti humanist addımıdır.** R.Kərimoğlu Prezidentin daim qazilərə, şəhid ailələrinə diqqət göstərdiyini və belə yardımların mərhələli şəkildə davam etdiyini qeyd edib.

O, bildirib ki, bundan da əvvəl dövlət başçısının ”Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda həlak olmuş, ölmüş və hərbi əməliyyatlarla əlaqədar xəbərsiz itkin düşdüyünə görə ölmüş elan edilmiş hərbi qulluqçuların ailə üzvlərinin sosial müdafiəsinin yaxşılaşdırılması ilə bağlı əlavə tədbirlər haqqında” Fərmanına əsasən şəhid ailələrinə 11 000 manat məbləğində birdəfəlik ödəmələr verilmişdi. Məhz həmin fərmanın ardınca Prezident İlham Əliyev növbəti humanist addım ataraq ötən ilin dekabrın 23-də ”Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçuların və daxili işlər orqanları əməkdaşlarının, habelə onların ailə üzvlərinin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı tədbirlər haqqında” fərman imzalamışdı. Onun sözlərinə görə, bu fərmana qədər Birinci Qarabağ müharibəsi əlilləri qanunvericiliyin yaratdığı problemlərə görə birdəfəlik ödəmələri ala bilmirdilər. Ancaq cənab Prezident həmişə olduğu kimi, bu dəfə də məsələyə humanist yanaşdı. Qarabağ qazisi Birinci Qarabağ müharibəsi əlillərinə birdəfəlik ödəmələrin verilməsinə görə Azərbaycan Prezidenti İlham Əliyevə minnətdarlığını bildirib:

Eyni zamanda bu işi həyata keçirən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinə də təşəkkürünü ifadə edib. “Ali Baş Komandan, Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva həmişə şəhid ailələrinə, qazilərə böyük diqqət və qayğı göstərir. Bu gün başlanılan proses də bu diqqət və qayğının nəticəsidir”.

■ **“Tərxis Olunmuş Hərbçilərin Gəncləri Maarifləndirmə” İctimai Birliyinin sədri Emin Həsənli hafta.az-a açıqlamasında bildirib ki, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev hər zaman şəhid ailələrinə, müharibə iştirakçılarına xüsusi diqqət və qayğı göstərib.** Onun sözlərinə görə, ən nyaxşı cəhət ondan ibarətdir ki, istər II dünya müharibəsi, istər Çernobl hadisəsi, istər 20 yanvar şəhidləri, əlilləri, I-II Qarabağ müharibəsi qaziləri, əlilləri Şəhid ailələri, müharibə veteranlarının statusu eynidir.

“Bu insanlar ölkə Prezidentinin təqaüdünü alırlar. Şəhid ailələri, müharibə əlilləri mənzillə təmin edilir. Şəhid ailələrinin, müharibə əlillərinin övladları özəl universitetlərdə belə qəbul olunduqda təhsil haqqları dövlət tərəfindən ödənilir. Onların övladlarının asudə vaxtlarının təşkili üçün dövlət müxtəlif proqramlar həyata keçirir, məşğuluq proqramına cəlb olunurlar. Müharibə əlilləri protezlərlə, ən müasir texnologiya ilə təmin olunur, ən müsair ölkələrin xəsətxanalarında müalicə olunmaları təmin edilir. Azərbaycan dövləti hər zaman bu qəbildən olan ailələrə xüsusi diqqət qayğı göstərir. Məlumdur ki. 44 günlük müharibədən sonra Yaşat fondu yaradılıb. Ölkə prezidenti bu istiqamətdə fərman və sərəncamlar verir. 2018 -ci ildə yenidən prezident seçilən cənab İlham Əliev xalqın böyük əksəriyyətinin dəstəyini qazandıqdan sonra ilk fərmanı şəhid ailələrinə 1991-97-ci ildə şəhid olmuş hərbçilərin ailələrinə kompensasiya verdi.

Baş nazir Əli Əsədov ”1997-ci il avqustun 2-dək olan xidmət dövründə Azərbaycan Respublikasının ərazi bütövlüyünün, müstəqilliyinin və konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar hərbi xidmət vəzifələrini (xidməti vəzifələrini) yerinə yetirərkən və ya həqiqi hərbi xidmət dövründə xəsarət (yaralanma, travma, kontuziya) alması və ya xəstələnməsi nəticəsində əlilliyi müəyyən edilmiş hərbi qulluqçulara, daxili işlər orqanlarının əməkdaşlarına və ya onların vərəsələrinə birdəfəlik ödəmənin verilməsi Qaydası”nın təsdiq edilməsi haqqında qərar imzalayıb. Qərarla Birinci Qarabağ müharibəsi əlillərinə I dərəcə əlilliyə görə - 8 800 manat, II dərəcə əlilliyə görə - 6 600 manat, III dərəcə əlilliyə görə - 4 400 manat məbləğində birdəfəlik ödəmə ediləcək.

E.Həsənli bilirib ki, Azərbaycan sosial dövlətdir. Xüsusən müharibədə iştirak edənlər diqqət və qayğı ilə əhatə olunur. Onun sözlərinə görə, son illər aprılan siyasətin nəticəsində Azərbaycanda çox vətənpərvər bir gənclik yetişib. “Bu, Vətən müharibəsndə də özünü sübut etdi. Bu qəhrəmanlıq salnaməsi bütün gənclik üçün örnəkdir. Bayraq, Vətən, torpaq qədər Şəhidlərimiz, qazilərimiz bizim üçün əzizdir. Onlara ehtiram hər bir kəs üçün önəmlidir. Bu ənənə ümummilli lider tərəfindən qoyulub. Cənb Prezident tərəfindən uğurla davam etdirilir”.

■ **“Əlil Qadınlar” Cəmiyyətinin sədri Məhluqə Qəhrəmanlı Prezident İlham Əliyevin müharibə əlillərinə xüsusi qayğısını əks etdirən sosial dəstək proqramına start verilməsini yüksək qiymətləndirib. O, bildirib ki, bu gün dövlətin I Qarabağ müharibəsi əlillərinə göstərdiyi diqqət-qayğısı xüsusilə önəmlidir, diqqətəlayiqdir.**

M.Qaramanlı bildirib ki, 11 minədək müharibə əlilinə proaktiv qaydada ödəmə təyin olunub. Onun sözlərinə görə, sığorta ödənişi alması üçün məhkəmə qətnaməsi olan 11 minədək şəxsə e-sistem üzərindən proaktiv qaydada (heç bir quruma müraciət etmədən) ödəmə təyin olunaraq onların bank hesablarına köçürülüb. Həmin dövrədək hərbi xidmətdə xəsarət alması barədə məlumatları aidiyyəti qurumlar tərəfindən müvafiq elektron sistemə daxil edilmiş, ödəməni hansı bankdan alacaqlarına dair onlara SMS göndərilir. Birdəfəlik ödəmə təyin olunmuş şəxslər bu barədə məlumatı nazirliyin sosial.gov.az saytındakı “Müharibə əlillərinə birdəfəlik ödəmə” pəncərəsinə daxil olaraq da əldə edə bilərlər.

E-sistemlərdə, habelə müvafiq arxivlərdə aldığı xəsarətlə bağlı məlumat olmadığı üçün elektron qaydada ödəmə təyin edilməyən şəxslər isə xəsarətlə bağlı şəhadətnamənin (və ya qərar, arayış) elektron sistemə daxil edilməsi üçün xidmət keçdikləri qurumun hərbi-həkim komissiyasına (həkim-uçuş komissiyasına) müraciət etməlidirlər. M.Qaramanlı qeyd edir ki, bəzi qazilərimiz var ki, adları elektron sistemə düşməyib. Onun sözlərinə görə, bu mənada maarifləndirməyə ehtiyac var. Müəyyən əlilliyi olan qazilər cəmiyyətə müraciət edərək, bu proqrama düşmək üçün nə etməli olduqlarını soruşurlar.

“Düşünürəm ki, dövlətimizin bu cür sosial proqramları davam ediləcək və bir nəfər qazi, şəhid ailəsi,əlil bu dəstəkdən kənarda qalmayacaq. Bu buna görə də bu kateqoriyaya aid olan insanlar lazım olan sənədlərini yenidən aidiyyəti yerlərə təqdim etməlidir. “1988-ci ildə sovet sistemi dağılmağa başlayanda ölkəmizin müstəqilliyini boğmağa çalışan xarici güclər əllərindən gələni etdilər, ölkəmiz müharibəyə sürükləndi. O zaman nizami Ordumuz yox idi. İndiki Ermənistan ərazisində yaşayan azərbaycanlılar öz tarixi torpaqlarından qovuldular, qaçqın düşdülər.

Belə bir vaxtda vətəni qorumaq üçün əsgər forması geyinib, nizami ordu, komandanlıq olmadan döyüşən Şəhid olan, Qazi, əlil olan oğullarımızın dəyərləndirilməsi, qiymətləndirilməsi olduqca xoşdur, sevindirici haldır. Dövlətimi alqışlayıram. I Qarabağ savaşında Şəhid, qazi veteran olan oğullarımıza dəyər veridiynə görə dövlətimizə bir təşəkkür borcumuz var. Sağ olsun Ali Baş Komandan. Keçmişini dəyələndirən xalq hər zaman müzəffər olacaq, qalib olacaqdır”.

✍ *Tahirə Qafarlı*

“

*Prezidentin bu addımı bir nümunədir*

*Bu cür humanist addımlar gələcək üçün çox yüksək örnəkdir*

*Ali Baş Komandan əmr versə, vuruşmağa, canla-başla gedərəm...*

*Bu addım yalnız 44 günlük Vətən Müharibəsi deyil, Birinci Qarabağ müharibəsinin iştirakçılarına da dövlət qayğısının göstəricisidir*

*Müharibə əlillərinin uşaqlarına uşaq pulu verilir*

*Cənab Prezident həmişə olduğu kimi, bu dəfə də məsələyə humanist yanaşdı*

*Son illər aprılan siyasətin nəticəsində Azərbayanda çox vətənpərvər gənclik yetişib*

*Prezidentin sosial proqramından kənarda qalanlar sənədlərini təqdim etməlidir*

# İran Azərbaycanla Türkiyənin bir arada olmasını istəmir

***Neçə vaxtdır İraqda daxili siyasi böhran hökm sürür, parlament binasını ələ keçirən Muktəda əs-Sədrin tərəfdarları qanunverici orqanın fəaliyyətini iflic ediblər. Ölkədə tərəflərin hər birini razı salacaq hökumət qurula bilmir. Elə Sədr tərəfdarlarını çilədən çıxaran da məhz bu faktdır. Yeri gəlmişkən, sonuncu seçki nəticəsində palamentdə ən çox kürsü qazanan Sədr əvvəl qurulacaq hökumətin tərkib və forması haqda təkliflər verirdisə, indi artıq konstitusiyanın, dövləti idarəetməninin formasının dəyişdirilməsindən dəm vurur. Ümumiyyətlə, Azərbaycanla tarixən sıx əlaqələrə malik olan bu ölkədə nələr baş verir? Suallarımızı İraqın keçmiş millət vəkili, Türkməneili Partiyasının sədri Riyaz Sarıkahya cavablandırır:***



**Riyaz Sarıkahya,**
İraqın keçmiş millət vəkili, Türkməneili Partiyasının sədri

## Müsahib

- Bilirsiniz ki, 8-9 ay öncə İraqda seçkilər keçirilmişdi və nəticədə yaranan parlament aylar sonra fəaliyyətə başlaya bilmişdi. Amma hökumətqurma məsələsində problemlər yarandı və bu məsələ uzun müddətdir ki, çözülmür. Çözüm üçün iki model təklif olunub. Bunlardan biri Muktəda əs-Sədrin təklif etdiyi çoxluq hökuməti modelidir. Yəni şiələrin, sünnilərin və kürdlərin bir hissəsi hökumət quracaq, digər qismlər isə müxalifətdə qalacaq. Nuri əl-Malikinin və İranın təsiri altında olan digər şiə qrupları isə başqa modellə çıxış edirlər. Onlar təklif edirlər ki, razılıq hökuməti qurulsun və bütün tərəflər hökumətdə təmsil olunsun.

Göründüyü kimi, tərəflərdən heç biri digərinin təklifi ilə razılaşmır və buna görə də parlamentin işi düyünə düşüb. Bunu görən Muktəda əs-Sədr özünə bağlı bütün millət vəkillərinə istefa verməyi tapşırdı və bu da oldu. Məlumat üçün deyim ki, hazırda parlamentdəki 329 millət vəkilindən 73 nəfəri Sədr qrupuna daxil idi. Bundan sonra Sədr qrupunun yerini İranla sıx təmasda olan şiələr və az sayda da müstəqil millət vəkilləri tutdu. Yəni İranyönümlü şiə qrup hökuməti qurmağa çalışdı. Amma Sədr bunu da həzm edə bilmədi. Bundan sonra Baş nazir vəzifəsinə Məhəmməd Şiya əs-Sudaninin namizədliyi irəli sürüldü ki, Sədr onu qəbul etmədi və tərəfdarlarını parlamenti tutmağa səslədi. Üç gündür Sədr tətərdarları parlamentdədir, orada iş dayanıb.

***- Sədr əvvəlki tələblərini dəyişdirib, deyəsən...***

- Hə, o, əvvəl çoxluq hökumətinin yaradılmasından bəhs edirdisə, indi deyir parlament üsul-idarəsi ləğv olunsun. Bunun üçünsə ilk növbədə konstitusiya, seçki haqqında qanunlar dəyişdirilməlidir. Sədr tərəfdarları bu gün də hökumətin də yer aldığı "Yaşıl bölgə"dədirlər. Əlbəttə, Malikinin tərəfdarı olan şiə qruplar da şəhərin başqa yerlərində toplanmağa qərarlıdırlar. Bilirsiniz, ölkəni siyasi probləmə salan hadisələrin məğzində bir-biri ilə rəqabət aparan iki şiə qrup var. İkisi də İranın ciddi təsiri altındadır. Malikinin başçılıq etdiyi qruplar İranın İslam İnqilab Keşikçiləri korpusu ilə sıx təmasdadırlar. Sədrin də İranla əlaqəsi var, amma bir az da ılıq, daha məsafəlidir. Sədr Səudiyyə Ərəbistanı, digər Körfəz ölkələri də təmasdadır. Əsas odur ki, ölkədə işlər böhrana sürüklənib. Maliki bu günlərdə ortaya çıxan səs yazısında da çox təhlükəli şeylərdən bəhs edib, ölkədə qan tökülməsindən, millətə xəyanətdən filandan danışıb. Vəziyyət çox ağırdır...

***- Yenidən seçkilərin keçirilməsi ehtimalı var? Maraqlıdır, baş verən hadisələrdə və gözlənilən yeni seçkilərdə türkmən əhali öz milli maraqları naminə yararlana bilir?***

- Təbii ki, bu gün çoxları təkrar seçkilərin keçirilməsindən danışır. Amma seçkidən əvvəl seçki haqda qanunun dəyişdirilməsinin, fərqli seçkinin keçirilməsini təklif edənlər var. Bundan əlavə, Ali Seçki Komissiyasının dəyişdirilməsi məsələsi də gündəmdədir. Bu yerdə qeyd edim ki, qurulduğu gündən həmin komissiyada türkmənlər də təmsil olunub, amma sonradan onları kənarlaşdırıblar.

Bu gün həmin qurum böyük siyasi hərəkatların nəzarətindədir və bitərəf mövqeyini tamamən itirib. İndi türkmən partiyaları da təkrar seçkinin keçirilməsinə tərəfdardır. Son iki seçkidə türkmənlərə çox ədalətsizlik edilib, xüsusilə də türkmənlərin yığcam yaşadığı ərazilərdə. Bu yandan da, xüsusilə son dönəmlər keçirilən seçkilərdə saxtakarlığa yol verilib, kürd qruplar seçkiyə nəzarət edib. Ona görə də yeni seçiləcək parlamentin daha təmiz olmasını arzulayırıq. Türkmənlərlə bağlı bir sıra təkliflərimiz var, inşallah ki, bu dəfə onları nəzərə alarlar.Türkmən partiyaları olaraq bunların baş verməsi üçün təzyiqlərimizi artıracağıq.

***- İraqda yaşanan siyasi böhranın alovlanmasında xarici təsir ola bilərmi? Prosesin əsas tərəflərinin şiələr olduğunu düşünsək, məsələn, İranın barmağı görünür bu hadisələrdə? Amma məncə Muktəda əs-Sədr İrana qarşıdır...***

- Biz əminik ki, xaricdəki mərkəzlərin İraqda baş verən proseslərdə mütləq rolu var. Burada İranın bir cür marağı var, Səudiyyə Ərəbistanın başqa cür, Körfəz ölkələrinin tamam fərqli. Hətta İrandaxili qrupların özlərinin bir-biri ilə uyuşmayan çox fərqli maraqları var. Bu gün İrandaxili qatı və ılıq şiə qrupları arasında gedən çəkişmələr İraqdakı şiə qruplara öz təsirini göstərməkdədir. Bayaq dediyim kimi, Sədrin özü nə qədər fərqli görünsə də, İrandakı ılıq qruplarla çox yaxşı əlaqəsi var və çətin vəziyyətə düşdüyü hər zaman məhz İrana gedir. Ümumiyyətlə, əslində İran əhalisinin böyük bir qismi Azərbaycan türklərindən ibarətdir, Xamneinin özü də Azərbaycan türküdür. Orada Azərbaycan türkcəsinin danışıq dili olması, türkcə təhsilin verilməsi, türkdilli televiziyaların fəaliyyət göstərməsi və sair problemdir, amma ümid edirik ki, zaman içində bu problemlər aradan qalxacaq. İranın siyasətində türk düşmənçiliyindən əlavə, rəqabət də özünü göstərir ki, bu da normaldır. Amma bu, bölgəyə ziyan vurmamalıdır. Çünki Amerika və başqa xarici mərkəzlər bundan hər zaman məharətlə yararlanır.

> *"Türkiyə ilə Azərbaycan, hətta Gürcüstan və Ermənistan arasında əməkdaşlığın güclənməsi, sərbəst keçid azadlığının olması ən yaxşı həll yoludur*

\Qərb dünyası çox istəyir ki, İslam aləmində məzhəbçilik olsun. Zamanında Avropada da məzhəbçilik olub, əsrlərlə müharibələr ediblər bir-biri ilə. Onlar bu vəziyyətin İslam dünyasında yaşanması üçün hər şeyi edirlər. Biz öz növbəmizdə İraqda vəziyyətin normallaşmasını, İranın da İslam dünyası ilə bütövləşməsini və türk dövlətləri ilə səmimi əməkdaşlıq etməsini arzulayırıq.

***- Məncə, İranın dini lideri Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğana Azərbaycanla bağlı da bəzi şeyləri çatdırıb. Məsələn, Ərdoğan Tehranda olarkən dini rəhbər Zəngəzur dəhlizindən söz açıb, ermənilərə təkrar qardaşlıq duyğularını səsləndirib, Bakını üstüörtülü təhdid edib deyə bilərik. Bunlar təsadüfdür, yoxsa Türkiyə - Azərbaycan qardaşlığına qarşı düşmən mövqeyi?***

- Azərbaycanla Türkiyənin bir arada olmasını, İran heç vaxt istəməz. Azərbaycanın həm ərazicə, həm də əhalinin sayına görə daha böyük hissəsi İranın tərkibindədir. Odur ki, İran Azərbaycanda fərqli inkişafın getməsini, cəmiyyət içində ayrılıqçı ünsürlərin yetişməsini, türkçülüyün inkişafını arzulamır. Amma Türkiyə ilə Azərbaycan, hətta Gürcüstan və Ermənistan arasında əməkdaşlığın güclənməsi, sərbəst keçid azadlığının olması ən yaxşı həll yoludur. Müsəlman dövlətlərinin xırda-xırda hissələrə bölünməsi digər dinlərə mənsub ölkələrin işinə yarayır. Bu gün bütün müsəlman dövlətlərinin toplam çəkisi tək Çininkindən azdır.

***- İranın Türkiyə və Azərbaycanla münasibətləri, gizlincə PKK-ya, Suriyada YPG-yə filana ciddi yardımları, zaman-zaman Azərbaycanın əleyhinə bəyanatları və ermənilərə ilk gündən qardaş dəstəyi verməsi baxımından yanaşsaq, İraq xalqı və hökuməti bu məsələlərdə tərəflərdən hansının yanındadır: İranın, yoxsa Türkiyə - Azərbaycan cütlüyünün?***

- İraqda xalqın böyük hissəsi şiələrdir və siyasi münasibətlərdə də məzhəb məsələsinin rolu böyükdür. Əlbəttə, açıq demək lazımdırsa, İranın İraqda nüfuzu çox yüksəkdir. Bu səbəbdən də Azərbaycan dövlətinin İraqla daha sıx əməkdaşlıq etməsi, daha çox tanınması lazımdır. İraqda bəzi siyasi mərkəzləri çıxmaqla, çoxları bilmir ki, Azərbaycan əhalisinin də yarıdan artığı şiələrdir. Qarabağ savaşında türkmən əhalinin böyük hissəsi istisna olmaqla, iraqlılar bitərəf qaldı.

Müharibə dövründə türkmən millət vəkilləri ərəb şiə millət vəkillərinə dedilər ki, niyə müsəlman-şiə Azərbaycan xalqına dəstək vermirsiniz, əksinə, hətta gizlincə ermənilərə dəstək veririk kimi göstəririk özümüzü? Əlbəttə cavab olmadı. Hər halda, İraq Azərbaycana qarşı da çıxmayıb. Çox istərdik ki, Türkiyə, Azərbaycan, elə İranın özü də, hansı ki, onun da əhalisinin yarısı Azərbaycan türkləridir, İraqla sıx əməkdaşlıq eləsin və təbii ki, biz türkmələrə də sahib çıxsınlar. Bu məsələdə İraqda yaşayan türkmənlər olaraq dostluq münasibətlərinin inkişafında körpü rolunu oynamaq istərdik.

***- Yaradılması gözlənilən və Ermənistan ərazisindən keçəcək Zəngəzur dəhlizi Böyük İpək Yolunun bir xəlqəsi, Çindən, Yaponiyadan İngiltrərəyədək uzanan yolun üzərində körpü olacaq. İraqın bu məsələyə münasibətini bilmək istərdik. Sizcə, Ermənistandan keçərək Türkiyənin yol infrastrukturuna birləşməsi gözlənilən Zəngəzur dəhlizindən İraq dövləti və xalqı yararlana bilərmi, bu proqrama qoşulduğu təqdirdə mənfəəti nə ola bilər?***

- İpək Yolu deyərkən bir çox keçidlərdən bəhs olunur. Bunlardan biri də Zəngəzur dəhlizidir. Əlbəttə, bu yol haradan keçir-keçsin, həmin bölgənin inkişafına, çiçəklənməsinə, mənfəət götürməsinə xidmət edəcək. Bundan əlavə, biz türkmənlər İpək Yolunun fəaliyyətinə və xüsusilə də Zəngəzur dəhlizi ideyasının reallaşmasına sırf ticarət gözü ilə deyil, türk dünyasının birləşməsi, Azərbaycan torpaqlarının bütünləşməsi kimi baxırıq. Bütün bu inkişaf müstəvisində erməniləri xilas eləmək, Qərb dövlətlərinin oyuncağı olmaqdan qurtarmalıyıq. Son 150 ildir ermənilər bölgəyə problem yaşadır, hansı ki, minillərdir birlikdəyik. Onları kənar qüvvələrin təsirindən qurtara bilsək, yaxşı olacaq. Ermənistan bu gün iqtisadi tənəzzül içindədir və ağlını başına yığaraq qonşu dövlətlərlə, xüsusilə də türk ölkələri ilə əməkdaşlığı gücləndirməsi elə özlərinə xeyirdir.

***✍ Vüsal Tağıbəyli***

**Aktual**

***Məlum olduğu kimi, avqustun 1-də Ukrayna taxılı yüklənmiş ilk gəmi Odessa limanını tərk edib. Bu, iyulun 22-də İstanbulda əldə edilmiş razılaşmaların həyata keçirilməsi çərçivəsində baş verib. Qlobal taxıl böhranına son qoymalı olan bu beynəlxalq sazişə Ankara himayədarlıq edir. Qeyd edək ki, Razoni gəmisində 26.527 ton qarğıdalı var. Bu yük Livanın Tripoli şəhərində boşaldılacaq. Lakin razılaşmalarda nəzərdə tutulduğu kimi, əvvəlcə İstanbulda gəmiyə baxış keçiriləcək. Ərzaq böhranından əziyyət çəkən ölkələr gəmilərin yolunun açılması prosesini diqqətlə müşahidə edir və dənli bitkilər ixracının bərpası haqqında sazişin tam həcmdə reallaşmasını gözləyirlər.***

# Ukraynadan nə qədər taxıl ala bilərik?

Yaxın günlərdə Mərakeş Krallığı da Ukraynadan taxıl alacaq. Şimali Afrikanın bu ölkəsində dənli bitkilər idxalında Ukraynanın payı azı 12 faizə bərabərdir. 2021-ci ildə iki ölkə arasında ticarətin həcmi 530 milyon dollara bərabər olub.

Qara dəniz limanlarının açılması barədə beynəlxalq sazişin imzalanması nəticəsində Mərakeş və Şimali Afrikanın daha beş ölkəsi Ukraynadan göndərilən taxıl yükünü qəbul edə biləcək.

Maraqlıdır, görəsən, Azərbaycan indiki vəziyyətdə Ukraynadan nə qədər taxıl ala bilər? Ukrayna taxılının qiyməti Azərbaycan üçün neçəyə başa gələ bilər? Ümumiyyətlə, ölkəmizin hazırda hansı ölkələrdən taxıl idxal etmək imkanı var? Yerli istehsalla bağlı vəziyyət necədir?



**Akif Nəsirli,**
Liberal İqtisadçılar Mərkəzinin rəhbəri

Məlumat üçün bildirək ki, 2022-ci ilin yanvar-may aylarında Azərbaycan xaricdən 355 min 625 ton buğda idxal edib. Dövlət Gömrük Komitəsin məlumatına əsasən, bu, ötən ilin eyni dövründəki idxaldan 36,6 min ton azdır - 2021-ci ilin 5 ayında buğda idxalımız 392,213 min ton təşkil etmişdi.

Həcm ifadəsindəki azalmaya baxmayaraq, buğda üçün xaricə ödədiyimiz pul kəskin artıb. Belə ki, 2021-ci ilin yanvar-mayında 392 min ton buğdaya 99,8 milyon dollar ödəmişdiksə, bu ilin eyni dövründə 355,6 min tona 124 milyon dollardan yuxarı vəsait ödənilib. Beləliklə, aydın olur ki, ötən il buğdanın 1 tonunu 254,4 dollara idxal etmişiksə, bu il 348,8 dollara almalı olmuşuq.

> *"Azərbaycan hər vəchlə istənilən ölkədən, istənilən qiymətə taxıl idxal edib ehtiyatlarını tam şəkildə doldurmalıdır*



Bu mövsümdə ölkəmizin öz-özünü buğda ilə tam təmin etməsi real deyil. Belə ki, bu il ölkə üzrə buğda əkinlərinin sahəsində azalma müşahidə olunmaqdadır. Ötən il ölkədə 608,5 min hektar sahədə payızlıq buğda əkilmişdisə, bu ilin məhsulu üçün əkin sahələri 6,4 min hektar azalmaqla 602,1 min hektara düşüb. Lakin yazlıq buğda əkinləri keçən ilkindən 2,2 dəfə çox olmaqla 4,2 min hektar təşkil edir.

■ **Məsələni hafta.az-a şərh edən Liberal İqtisadçılar Mərkəzinin rəhbəri Akif Nəsirli deyib ki, Azərbaycan taxılı əsasən Rusiyadan idxal edir: "Digər ölkələrin burada payı cəmi 7-8 faizdir. Ukrayna və Qazaxıstan da həmin 7-8 faizin tərkibindədir.**

Amma indiki şəraitdə Azərbaycan Ukraynadan taxıl idxal edə bilməz. Çünki indi yola düşən taxılla dolu tankerlər əvvəlki dövrlərdə bağlanılmış, lakin yerinə yetirilməmiş müqavilələrə uyğun ixracdır. Razılaşmaya görə, taxıl əsasən dünyanın daha çox aclıq hiss olunan bölgələrinə göndəriləcək. Təxminən 20 milyon ton taxıl ixracı gözlənilir. Amma proses davamlı olarsa, növbəti mərhələdə Asiya istiqamətinə də taxıl ixracı mümkündür". Ekspert vurğulayıb ki, Ukrayna hər il təxminən 100 milyon tondan çox dənli bitki istehsal edir:

"Onun 80 faizi ərzaq buğdasıdır və təxminən 43 milyon ton ixrac üçün nəzərdə tutulur. 43 milyon tonun 20 milyon tonu ötən ildən icra olunmamışdı. İndi ixrac olunan məhsul da ötən ildən qalan məhsuldur. Builki məhsulun ixracı hələ müzakirə mərhələsindədir. Çünki Ukrayna tərəfi öncə ölkədə nə qədər taxıl istehsal edildiyini müəyyən etməlidir. Təbii ki, həm müharibə, həm də quraqlıqla bağlı bu ölkədə taxıl istehsalı kifayət qədər aşağı düşüb. Gözlənilir ki, bu il istehsal ötən illərlə müqayisədə 30-40 az olacaq. Nəticədə ixrac da azalacaq. Çünki Ukraynanın daxili tələbatı təxminən 40 milyon tondur və 40 milyon tondan artıq həmişə ixrac edilib. Demək ki, 30-40 faiz azalma elə ixrac üçün nəzərdə tutulmuş limitdən olacaq. Bu məsələlərin fonunda hesab edirəm ki, Azərbaycan sahibkarlarının Ukraynadan taxıl idxal etmək imkanları çox məhduddur". A.Nəsirlinin sözlərinə görə, taxıl ixracı məsələsində Rusiya da ehtiyatlı davranmağa çalışır:

"Bilirsiniz ki, Rusiyaya tətbiq olunan sanksiyalar nəticəsində bu ölkə makaron, verməşil kimi bəzi un məmulatlarını xaricdən idxal edə bilmir. Artıq həmin məhsullar daxildə istehsal olunmalıdır deyə, hazırda bu ölkədə taxıl məhsullarına ötən illərlə müqayisədə daha çox tələbat var.

İndi Rusiyadan Azərbaycana idxal olunan buğdanın tonu təxminən 400 dollara gəlib çıxır. Ukrayna və Qazaxıstan da taxılı dünya bazarından aşağı satmayacaq. Ona görə də Azərbaycan hər vəchlə istənilən ölkədən, istənilən qiymətə taxıl idxal edib ehtiyatlarını tam şəkildə doldurmalıdır. Ən azı Taxıl Fondunun nizamnaməsində nəzərdə tutulduğu qədər taxılla doldurulmalıdır. Digər tərəfdən, əsas hədəf yerli istehsalın dirçəldilməsi olmalıdır".

***✍ Sevinc***

# Fiziki, mənəvi sağlam gənclik

## Layihə

***Azərbaycanda uşaq və gənclərin fiziki, mənəvi inkişafı daima dövlətin xüsusi diqqət mərkəzindədir. Bu gün ölkəmizdə uşaqların sağlamlığı, inkişafı, təhsili, onların hüquqlarının qorunması üçün genişmiqyaslı işlər görülür. Uşaqların mənəvi-fiziki inkişafında təhsilin rolu danılmazdır. Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 24 oktyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrası sayəsində təhsil tariximizdə ilk dəfə olaraq dövlət büdcəsi hesabına ümumtəhsil məktəblərində beşyaşlı uşaqların məktəbə hazırlığına başlanılıb.***



Eyni zamanda, ölkəmizdə uşaqların peşə təhsilinə və ali məktəblərə hazırlığına xüsusi diqqət yetirilir. Bunun nəticəsidir ki, "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın qəbulundan ötən 5 il ərzində təhsil sahəsində, o cümlədən peşə təhsilində müsbət dinamika müşahidə olunub. Təhsil Nazirliyi yanında Peşə Təhsili üzrə Dövlət Agentliyinin yaradılması, "Azərbaycan Respublikasında peşə təhsili və təliminin inkişafına dair Strateji Yol Xəritəsi"nin icrası, "Peşə təhsili haqqında" qanunun qəbulu bu sahənin inkişafı baxımından müstəsna əhəmiyyət kəsb edir. 2016-2017-ci tədris ilindən başlayaraq peşə təhsili müəssisələrinə sənəd qəbulu "ASAN Peşə" layihəsi çərçivəsində həyata keçirilir. Bundan başqa, istedadlı uşaqlarla sistemli işin təşkili nəticəsində ölkədə fənlər üzrə olimpiada hərəkatı da genişlənib. Məsələn, ötən ilin sonlarında Birləşmiş Ərəb Əmirliklərində Yeniyetmələrin Beynəlxalq Elm Olimpiadası baş tutub. 59 ölkədən 354 şagirdin iştirak etdiyi olimpiadada məktəblilərimiz 1 gümüş və 3 bürünc medal olmaqla, ümumilikdə 4 medal qazanıb. Eyni zamanda, ötən il məktəblilərimiz Yeniyetmələrin 24-cü Balkan riyaziyyat olimpiadasında 6 medal qazanıb ki, bu da son 10 ildə ən yüksək nəticəmiz hesab edilir.

Bundan başqa, Azərbaycan Gənclər və İdman Nazirliyinin ötənilki rəsmi açıqlamasına görə, il ərzində qitə və dünya çempionatlarında, kubok yarışlarında, Qran-pri və digər nüfuzlu beynəlxalq yarışlarda ümumilikdə 519 medal qazanılıb. Bu medallardan 179-u qızıl, 147-si gümüş və 193-ü bürüncdür. Olimpiya növlərində 227 (62 qızıl, 62 gümüş, 103 bürünc) mükafat əldə olunub. İdmançılarımız qeyri-olimpiya növlərində 292 (117 qızıl, 85 gümüş, 90 bürünc) dəfə fəxri kürsüyə qalxıblar. Bu, o deməkdir ki, gənclərimiz dövlətin onlara yaratdığı şəraitdən maksimum yararlanmağa çalışır.

Uşaq və yeniyetmələrə dövlət qayğısı ilə bərabər, Azərbaycanda düşünülmüş, hərtərəfli gənclər siyasəti həyata keçirilir. 1 fevral 1997-ci il tarixdə fəal gənclərin bir qrupunu qəbul edən Ümummilli lider Heydər Əliyev "2 fevral - Azərbaycan Gəncləri Gününün elan edilməsi haqqında" Sərəncam imzalayıb. 1999-cu ildə Heydər Əliyev tərəfindən imzalanan "Dövlət Gənclər Siyasəti haqqında" Fərman bu sahəyə böyük önəm verildiyinin təzahürü kimi qiymətləndirilə bilər. Fərmana müvafiq olaraq

> *Müstəqillik qazandığı ilk gündən dövlətimiz bu sahəyə xüsusi diqqət və qayğı göstərir*

''Gənclər siyasəti haqqında'' Azərbaycan Respublikasının Qanunu qəbul edilib. Qeyd edək ki, 1996-cı ildə Azərbaycan müstəqil dövlət kimi ilk dəfə Olimpiya Oyunlarına qatılıb. Gənclərin idmana cəlb olunması üçün Bakıda və regionlarda Olimpiya İdman Kompleksləri istifadəyə verilib. 2002-2003-cü illərdə "Gənc istedadlar üçün xüsusi təqaüd təyin edilməsi haqqında", "Bədən tərbiyəsi və idman haqqında", "Azərbaycanın gənc istedadlarına dövlət qayğısı haqqında", "Dövlət gənclər siyasəti haqqında" sənədlərin qəbul edilməsinin gənclərin həyatında xüsusi rolu oldu. Eyni zamanda, "İstedadlı yeniyetmələrin və yaradıcı gənclərin sosial, iqtisadi və digər problemlərinin həllinə yönəlmiş, onların öz qabiliyyətlərini inkişaf etdirmələrinə kömək edən Dövlət Proqramı", "Uşaqların təlim-tərbiyəsinin yaxşılaşdırılması və hüquqlarının qorunması haqqında", "Ordudan tərxis olunmuş gənclərin məşğulluğu ilə bağlı" və digər proqramlar hazırlandı.

Bu gün ölkəmizdə Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurlu gənclər siyasəti həyata keçirilir. Bu istiqamətdə müvafiq proqramlar qəbul olunub və məqsədyönlü tədbirlər davamlı xarakter daşıyır. 2005-ci ildə Prezident İlham Əliyev tərəfindən "Azərbaycan Gəncliyi Dövlət Proqramı" (2005-2009-cu illər) imzalanıb. 2005-2009-cu və 2011-2015-ci illəri əhatə edən "Azərbaycan gəncliyi" Dövlət proqramlarının uğurla həyata keçirilməsi, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər



**Müşfiq Cəfərov,**
Milli Məclisin deputatı

Fondunun yaradılması, bilikli, peşəkar, istedadlı gənclərin dəstəklənməsi üçün Prezident Mükafatının təsis edilməsi gənclərin hərtərəfli inkişafını stimullaşdırıb. Digər tərəfdən, dövlət başçısının müvafiq Fərmanı ilə Gənclər və İdman Nazirliyi 2006-cı ildə yenidən təşkil edilib, gənclər siyasətinin əsas icra orqanı qarşısında yeni vəzifələr qoyulub. Azərbaycanda Gənclər Günü ilə bağlı hər il silsilə tədbirlər təşkil olunur, təhsil və digər sahələrdə yüksək nailiyyət qazanmış gənclər xüsusi mükafatlarla təltif edilirlər, gənclər tərəfindən təqdim olunmuş layihələr maliyyələşdirilir, istedadlı gənclərin beynəlxalq müsabiqələrdə, konfrans-seminarlarda iştirakı təmin edilir, müxtəlif istiqamətlər üzrə yarışlar təşkil olunur.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tərəfindən 2007-ci ilin "Gənclər ili" elan edilməsi isə mühüm əhəmiyyətə malikdir. Eyni zamanda, son illər Bakıda və regionlarda istifadəyə verilən "Gənclər evləri" gənclərin maraq dairəsini genişləndirərək, asudə vaxtın mənalı və səmərəli təşkili üçün yeni imkanlar yaradıb. Gənclərin məşğulluğu və sahibkarlığın inkişafı üçün biznes inkubatorların, texnoparkların yaradılması onların maddi durumunun, rifah halının daha da yaxşılaşdırılmasına imkan verib. Bütün bunlar

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Uşaq və gənclərin fiziki və mənəvi inkişafı

gənclərə xüsusi diqqət və qayğının göstəricisi, onların fiziki, mənəvi inkişafının dövlətin diqqət mərkəzində olmasının bariz nümunəsidir. Ümumiyyətlə, bütün bu səmərəli tədbirlərin qanunauyğun nəticəsi kimi, həyatın bütün sahələrində gənclərin fəallığı, təşəbbüskarlığı, irimiqyaslı layihələrin icrasında və idarəetmədə rolu artıb, vətənpərvərlik ruhu və vətəndaşlıq mövqeyi möhkəmlənib.

### Ekspert rəyi

■ **Mövzu ilə bağlı hafta.az-la fikirlərini bölüşən Milli Məclisin deputatı Müşfiq Cəfərov deyib ki, uşaq və gənclərin fiziki və mənəvi inkişafı ölkəsinin, yaşadığı cəmiyyətin, xalqının inkişaf göstəricisidir:**

"Hər kəsə məlumdur ki, dövlətin, cəmiyyətin gələcəyini indiki uşaqlar və gənclər müəyyən edir. Bu mənada gənc nəslin düzgün tərbiyəsi, fiziki və mənəvi inkişafı, savadlı vətəndaş kimi böyüməsi və digər vacib amillər onların gələcəkdə cəmiyyətə inteqrasiyasında önəmli rol oynayır. Müstəqillik qazandığı ilk gündən dövlətimiz bu sahəyə xüsusi diqqət və qayğı göstərir. Son illər bu diqqət və qayğı daha da artıb. Yeni məktəblərin tikintisi və təmiri, idman infrastrukturunun yenilənməsi, stadionların və olimpiya komplekslərinin inşası da buna əyani sübutdur. Əlbəttə, hər bir uşağın və gəncin gələcəkdə layiqli vətəndaş kimi yetişməsində onun mənəvi və fiziki tərbiyəsi ilə yanaşı təhsil də önəmli yer tutur. Digər tərəfdən bunlar bir-biri ilə mütləq uyğunlaşmalıdır. Təhsil sistemində aparılan uğurlu islahatlar, ölkəmizdə olimpiya hərəkatının geniş vüsət alması bu sahədə aparılan işlərdəndir". Millət vəkili vurğulayıb ki, gənc nəslin düzgün mənəvi tərbiyəsi, savadlı vətəndaş kimi böyüməsi ilə paralel, onun fiziki cəhətdən də sağlam olması mütləqdir:

"Övladlarımızın sağlam böyüməsində məktəbin, ailənin, cəmiyyətin, hətta hər gün təmasda olduğu insanların da rolu var. Valideyn övladının sağlam böyüməsi üçün onu müxtəlif idman növləri ilə məşğul olmasını təmin etməlidir. Övladlarımızın sağlamlığını düşünərkən bəzi məqamlara xüsusi diqqət yetirmək lazımdır. Onlardan ən birincisi və vacibi uşaq və gəncləri fiziki yüklənmələrdən qorumaqdır. Bundan başqa idmanın hansısa növü ilə mütəmadi məşğul olan uşağın gələcəkdə bədən quruluşunda fəsadların yaranmaması üçün valideyn və müəllimlər müəyyən nüanslara diqqət etməlidirlər. Azərbaycan gəncliyi bu gün beynəlxalq aləmdə seçilib, dünya gənclər hərəkatının aparıcı qüvvələri arasında layiqli yer alıb. Son illər gənclərin beynəlxalq əməkdaşlığı xeyli genişlənib, ikitərəfli və çoxtərəfli əlaqələrin olduğu dövlətlərin sayı artmaqda davam edir. Gəncliyimiz Azərbaycanın təbliği baxımından əhəmiyyətli təsir vasitəsinə çevrilib".

✍ ***Sevinc***

*Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi əsasında hazırlanıb.*

## XƏBƏRİNİZ OLSUN...



■ "Şuşada yeni teatr binasının inşa edilməsi məsələsi nəzərdən keçirilir". Bunu mədəniyyət naziri Anar Kərimov jurnalistlərə açıqlamasında deyib. O bildirib ki, Şuşa Azərbaycan Prezidentin qərarı ilə qoruq elan edilib: "Şuşanın Baş planı təsdiq edilsə də, təfsilatlı plan hazırlanmaqdadır. Belə ki, orada hansı mədəniyyət müəssisələrinin olacağı müzakirə mövzusudur". Nazir əlavə edib ki, Şuşada teatr binasının inşa edilməsi məsələsi gündəmdədir.

■ İranın Şiraz şəhərində "Su-22" tipli qırıcı təyyarə qəzaya uğrayıb. Qırıcı təyyarə dünən səhər Şiraz hava limanında uçuş-enmə zolağından çıxıb və qəzaya uğrayıb. İlkin məlumata görə, hadisə yerli vaxtla səhər saat 9:00 radələrində baş verib. Məlumata görə, hadisə nəticəsində pilot və ikinci pilot yaralanıb və xəstəxanaya yerləşdirilib.

■ Bu ilin iyul ayında Türkiyədə istehlak qiymətləri indeksində dəyişiklik əvvəlki ayla müqayisədə 2,37%, əvvəlki ilin eyni ayına görə isə 79,6% təşkil edib. İllik inflyasiya son 20 ilin ən yüksək səviyyəsinə çatıb.



■ Qaydaları pozan 12 nəfərin imtahan nəticələri ləğv edilib. Bu barədə Dövlət İmtahan Mərkəzi məlumat yayıb. İmtahanda iştirak etmək üçün ərizə təsdiq etmiş 25340 abituriyentdən (I qrup üzrə 21278 nəfər, IV qrup üzrə 4062 nəfər) 468 nəfəri (I qrup üzrə 414 nəfər, IV qrup üzrə 54 nəfər) imtahanda iştirak etməyib. Abituriyentlərdən 12 nəfəri qaydaları pozduqlarına görə imtahandan xaric olunub və nəticələri ləğv edilib.

■ Sosial şəbəkədə özünü zabit kimi təqdim edən əsgər ordu sıralarından xaric edilib. Bu barədə Müdafiə Nazirliyindən məlumat verilib. Bildirilib ki, Azərbaycan Ordusunun müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Mədədov Urfan İsə oğlunun xidmət zamanı smartfon tipli telefon istifadə etməsi, eləcə də şəxsi sosial şəbəkə hesablarında xidmətə aid foto-video görüntüləri paylaşması aşkarlanıb.

# ABŞ hər zaman Qarabağ məsələsinin bitməsini istəyib

***Beynəlxalq münasibətlər üzrə analitik Teymur Qasımlı ilə hafta.az üçün növbəti söhbətimizdə Azərbaycanla qaz nəqlini artırmaq haqqında saziş imzalamış Avropa İttifaqının Qarabağ və Zəngəzurdakı proseslərə mümkün təsiri, ABŞ-ın Ermənistandakı səfiri Linn Treysinin Azərbaycan-Ermənistan münasibətləri haqda mütəmadi ikibaşlı çıxışları fonunda Amerika-Azərbaycan tərəfdaşlığı, Böyük Britaniyanın sentyabradək vəzifə başında olacaq Baş naziri Boris Consonun NATO baş katibi olması ehtimalı, Ukrayna savaşının nəticələrinin bu ölkənin iqtisadiyyatının zəifləməsindən asılı olması və s. mövzuları müzakirə etdik.***

## Müzakirə

***- Teymur bəy, bu yaxınlarda Avropa İttifaqı Azərbaycanla qaz nəqlini artırmaq haqda saziş imzalayıb, strateji münasibətlər qurub. Son dövrlərdə həmin qurum rəsmi sənəd və çıxışlarında "Dağlıq Qarabağ" ifadəsi işlətmir ki, bu da revanşist xislətli ermənilərin bərk qəzəbinə səbəb olur. Sizcə, Rusiya və İran amili olmasa, Avropa İttifaqı tezliklə Qarabağ və Zəngəzurdakı yarımçıq işlərimizin ədalətli yekun həllinə şərait yaradarmı?***

- Öncə onu demək istəyirəm ki, Avropa-Azərbaycan münasibətlərində enerji amili birinci məsələ olub. Avropa Azərbaycan enerjisini nəqlı məsələsində hər zaman bizə dəstək verib. Əvvəllər neft-qaz layihələrində Avropanı Türkiyə təmsil edib və əsas oyunculardan biri olub. Hazırda Azərbaycan enerjisi Türkiyə üzərindən Avropaya nəql olunur...

O da var ki, bu saat Rusiya-Ukrayna müharibəsi gedir. Rusiya Avropanı qazla şantaj edir. Avropaya qaz lazımdır. Ona görə də Avropa son zamanlar Azərbaycana yaxınlaşıb. Azərbaycan dövləti də bu istiqamətdə Avropaya doğru düzgün siyasi gedişlər edir. Hər zaman demişik, Avropanı Qafqaza gətirmək və Rusiyaya qarşı istifadə etmək lazımdır. Bizim hökumətimiz son dövrdə bunu uğurla edir. Avropa bizə deyir ki, Rusiya Ukrayna müharibəsindən yararlanaraq Azərbaycanla Ermənistan arasında məsələləri həll edək. Fəqət, Rusiya buna imkan vermir. Amma Avropa İtifaqı hazırda Azərbaycanla Ermənistan arasındakı problemlərin bitməsini istəyir və var gücüylə buna dəstək verir. Təəssüf ki, hələlik bunu etməyə tam gücü yoxdur. Səbəb Rusiyadır. Lakin hazırda Avropanın atdığı addımlar Rusiyanı oyundankənar etmək üçündür. Qaldı Zəngəzur dəhlizi digər məsələlərin həllinə, bu, əsasən Avropadan yox, bölgədəki oyunculardan aslıdır. Əsasən də Rusiyadan...

Onu da demək lazımdır ki, Azərbaycan qazı Avropanı tam təmin etmək gücündə deyil. Buna rəğmən biz Avropanın enerjiyə olan ehtiyacından dövlət maraqlarımız üçün səmərəli şəkildə istifadə edə bilərik. O da var ki, Avropa hər zaman ikibaşlı oynayıb. Bu isə onun çoxəsrlik siyasətinin qanunudur...

***- İyulun 25-də ABŞ dövlət katibi Entoni Blinkenin Azərbaycan dövlət başçısı ilə növbəti telefon danışığı oldu. Ağ Ev rəsmisi Ermənistan və Azərbaycan arasında münasibətlərin normallaşdırılmasını dəstəklədiyini bildirdi. Lakin bu yandan da ABŞ-ın Ermənistandakı səfiri Linn Treysi mütəmadi olaraq müəyyən ikibaşlı çıxışlar edir, Qarabağ münaqişəsinin mövcudluğundan, həll olunmamasından, Minsk qrupunun yenidən canlandırılmasından dəm vurur. Bunu necə dəyərləndirmək olar?..***

- Bilirsiniz, ABŞ hər zaman dövlət maraqları çərçivəsində Qarabağ məsələsinin bitməsini



**Teymur Qasımlı,**
Beynəlxalq münasibətlər üzrə analitik

istəyib və Azərbaycana dəstək verib. Həmin dəstək əsasən Türkiyə üzərindən edilib. Amma Ermənistan da 10 noyabr 2020-ci ildən sonra Amerika üçün Qafqaz siyasəti baxımından önəmli olkəyə çevrilib. Çünki Fransa da Ermənistan üçün gərəkli siyasi diplomatik islər görür. ABŞ-ın Ermənistandakı səfirinin bəyanatları Ermənistanı Vaşinqton tərəfinə çəkmək üçün deyilən sözlərdir. Əsas olan səfirin dediyi sözlər yox, ABŞ dövlətinin nə deməsidir. Bəs Ağ Ev səfirə niyə icazə verir belə sözlər desin? Səbəb hazırda diplomatik oyunlar getməsi və qeyd etdiyim kimi, Fransa səfirinin də Ermənistanı yanına çəkmək üçün oxşar çıxışlar etməsidir. Ona görə də bu siyasi-diplomatik oyunlarda Azərbaycan düzgün gedişlər etməlidir. Xarici ölkə səfirinin Qarabağ, Zəngəzur haqda nə deməsi əsas deyil. Əsas olan bizim Azərbaycan dövləti olaraq nə deməyimiz və nə etməyimizdir...

***- Böyük Britaniyanın sentyabradək vəzifə başında olacaq Baş naziri Boris Consonun NATO-ya Baş katib seçilməsi ehtimalına necə baxırsınız? Sizcə, bu, alyansın dünyadakı hərbi-siyasi proseslərə, o cümlədən Rusiya-Ukrayna savaşına müdaxiləsinin daha da aktivləşməsinə təkan berə bilərmi?***

- Bir zamanlar Fransa prezidenti Emanuel Makron deyirdi ki, NATO beyin ölümü keçirdir. İndi isə NATO daha önəmli təşkilat çevrilib. Niyə? Buna Rusiya-Ukrayna müharibəsi səbəb oldu. Digər tərəfdən, ABŞ-ın da bu təşkilatda nüfuzu artdi və Böyük Britaniyanı da yanına aldı. Aropaya deyir ki, biz olmasaq, sizi Rusiya işğal edər. Ona görə də Berlin-Paris-Roma üçbucağı quruldu buna qarşı...

Qaldı konkret Boris Consonun NATO-baş katibi olması ehtimalına, bu haqda danışmaq hələ tezdır. Berlin-Paris-Roma buna nə deyəcək, hələ bilinmir. Hazırda NATO-nun baş katibi Ukraynaya dəstək olur. NATO isə əsasən Birləşmiş Ştatların dediyinə əməl edir. Hazirki NATO baş katibi 30 sentyabr 2023-cü ilə qədər vəzifəsini icra edəcək. Consonun namizəd olub-olmayacağı isə hələki bilinmir. Və onu da bilmək gərəkdir ki, Conson NATO baş katibi oldu-olmadı, NATO daim Ukraynaya dəstək olacaq...

***- "Faynənşl Tayms" nəşri yazır ki, bu payızda Ukraynanın maliyyə resursları tükənə və beynəlxalq borcun iki il müddətinə təxirə salınması ilə bağlı razılaşmaya baxmayaraq iqtisadiyyat kəskin enişlə üzləşə bilər. Odur ki, xarici dəstək olmasa, Ukrayna iqtisadi baxımdan hərbi əməliyyatları davam etdirə bilməyəcək. Bu proqnoza münasibətiniz?***

- Hazırda Ukrayna Qərbin dəstəyi ilə müharibə aparır. Əgər Qərbin dəstəyi olmasa, Rusiya çoxdan Ukrayna işğal etmişdi. Hazırda Ukrayna xalqı öz vətəni üçün şərəflə döyüşür. Qərb dəstək verməsə, Ukrayna xalqı döyüşər, ancaq vəziyyət fərqli olar. Onsuz da müharibə oldu-olmadı Ukraynanın iqtisadi vəziyyət yaxşı deyildi...

> *Avropanı Qafqaza gətirmək və Rusiyaya qarşı istifadə etmək lazımdır*

***- Son günlər bir sıra müxalif siyasətçilər də Azərbaycanda "Rusiya 5-ci kolon"un aktivliyindən danışırlar. Sizcə, həmin "5-ci kolon" xarici siyasətimizə nə qədər təsir göstərir?***

- Azərbaycanda 1813-cü ildən "5-ci kolon" var və nə qədər ki, Rusiyanın başında imperiya xislətli hakimiyyət var, hər zaman da olacaq. Həmçinin ölkəmizdə yalnız Rusiyaya bağlı adamlar yoxdu, digər dövlətlərin də "5-ci kalon"u var ki, onlar da burda həmin dövlətlərin maraqlarını təbliğ edirlər. Bir də Azərbaycanda milli insanlar var. Bunlar Azərbaycanın maraqları çərçivəsində fikirlər bildirirlər. Bu insanlar Azərbaycan dövlətinə maraqlarını qorumaqla məşğuldurlar. Hazırda Azərbaycanın Turan, Qərb və Avrasiya cinahında dayanmasını deyən insanlar da var. Avrasiya cinahını Azərbaycanın milli maraqlarına uyğun görmürəm. Azərbaycan dövlətinin marağı hardadırsa, orda olmalıdır. Son illər "5-ci kalon"a bağlı insanlar Azərbaycan xarici siyasətindən uzaqlaşıblar. Və inanmıram ki, hazırda "5-ci kalon" xarici siyasətimizə təsir göstərir. Bu gün Azərbaycan dövlətinin atdiği addımlar önəmlidir. Azərbaycan dövləti və vətəndaşları dəmir yumruq kimi birləşməli, Azərbaycanı qorumalıdırlar...

✍ ***Sultan Laçın***

# Dünyanın "Tayvan problemi"

**25 il sonra Tayvana ayaq basan ən yüksək rütbəli amerikalı Nensi Pelosinin məlum səfəri dünyanın diqqətini bir anda Rusiya-Ukrayna savaşından Uzaq Şərqə yönəltdi. Protokolda ABŞ prezidenti və vitse-prezidentdən sonra üçüncü yerdə olan ABŞ Nümayəndələr Palatasının sədri Nensi Pelosini daşıyan SPAR19 təyyarəsi çərşənbə axşamı yerli vaxtla saat 22:44-də Sonşan hava limanına enib.**



82 yaşlı Demokrat Partiyasının siyasətçisi Tayvan lideri Tsai İnq-ven ilə görüşüb. Pelosi, Tsai ilə görüşündə Tayvanı tərk etməyəcəklərini söylədi, nümayəndə heyətini və sarsılmaz dostluğunu birmənalı şəkildə nümayiş etdirmək üçün Tayvanda olmaqdan qürur duyduqlarını vurğuladı. "İndi ABŞ-ın Tayvanla həmrəyliyi həmişəkindən daha mühümdür. Və bu, bizim bu gün adaya çatdırdığımız mesajdır", - amerikalı siyasətçi deyib. Tayvan lideri Tsai İnq-ven göstərdiyi "sarsılmaz dəstəyə görə" Nensi Pelosiyə təşəkkür edib və Nümayəndələr Palatasının sədrini ölkəsinin ən sadiq dostlarından biri hesab edib. Tsay Rusiyanın Ukraynaya müdaxiləsinə toxunaraq, "Tayvan geri çəkilməyəcək" deyib.

Qeyd edək ki, 23 milyon əhalisi olan Tayvan illərdir Çinin mümkün hərbi müdaxiləsi qorxusu ilə yaşayır. Cənubi Asiyadakı ada Çinin ən həssas regional problemidir. Pekin administrasiyası Tayvanı ayrıca ölkə kimi tanımır və onu özünün bir hissəsi hesab edir Nensi Pelosinin səfərinə qəti şəkildə etiraz edən Çin ABŞ-ın Pekindəki səfirini XİN-ə çağıraraq Vaşinqtona etiraz edib.

## Çinin cavabı

■ **"ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Tayvana səfəri ilə bağlı ABŞ ciddi əks tədbirlərlə üzləşəcək".** Bunu Çin Xalq Respublikası Xarici İşlər Nazirliyinin Silahlara Nəzarət Departamentinin direktoru Fu Tsun deyib.

> *ABŞ-a qarşı ciddi əkstədbirlər görüləcək. İnsanlar bu barədə heç bir illüziyaya qapılmamalıdırlar*

"ABŞ-ın bu hərəkətləri ciddi mənfi nəticələrə gətirib çıxaracaq. ABŞ-a qarşı ciddi əks tədbirlər görüləcək. İnsanlar bu barədə heç bir illüziyaya qapılmamalıdırlar", - deyə Fu Tsun bildirib. Onun sözlərinə görə, Çin ölkəni sülh yolu ilə birləşdirmək üçün hər şeyi edəcək, lakin hərbi ssenaridən də imtina etmir.

ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin adaya səfəri ilə bağlı artan gərginlik fonunda Çin Tayvanla ticarətini də məhdudlaşdırıb. Bu barədə Çin Ticarət Nazirliyinin bəyanatında bildirilir.

Çin tikintidə istifadə olunan əsas material olan təbii qumun ixracını, həmçinin Tayvan sitrus meyvələrinin və bəzi balıq növlərinin idxalını dayandırıb. Tayvana qarşı cavab sanksiyaları 2022-ci il avqustun 3-də qüvvəyə minəcək. Qeyd edək ki, Tayvanın xarixi ticarətində ixracın 30 faizi məhz Çinin payına düşür.

Hərbi addımlara gəldikdə isə, Çin ordusu ABŞ Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin adaya səfəri fonunda Tayvan adası ətrafındakı altı bölgədə hərbi təlimlər keçirəcək. Bu barədə "Global Times" məlumat yayıb.

"Çin Xalq Azadlıq Ordusu cümə axşamından bazar gününə kimi Tayvan adasını əhatə edən altı bölgə də daxil olmaqla, əhəmiyyətli hərbi təlimlər və təlim fəaliyyətləri keçirəcək", - məlumatda deyilir. Çinin mümkün addımları ilə bağlı ABŞ artan gərginliyi azaltmaq üçün Pekinə siyasi mesajlar ötürməkdədir.

"Ağ Ev Tayvanın müstəqilliyini tanımır. ABŞ Administrasiyası yaxın günlərdə bu mövqeyi ən yüksək səviyyədə Çinin diqqətinə çatdırıb". Bu barədə Ağ Evin Milli Təhlükəsizlik Şurasının strateji kommunikasiyalar üzrə koordinatoru Con Kirbi bildirib: "Biz bəyan etmişik ki, Tayvanın müstəqilliyini dəstəkləmirik". Kirbinin sözlərinə görə, ABŞ Çinin genişmiqyaslı təlimlər keçirmək də daxil olmaqla, uzunmüddətli perspektivdə cavab tədbirləri görəcəyini gözləyir: "ABŞ Çinlə münaqişəyə can atmır".

## Rusiyadan Pekinə dəstək

■ **Gözlənildiyi kimi, Pelosinin səfərindən sonra Pekin-Vaşinqton gərginliyi daha çox Rusiyanın maraqlarına xidmət etməkdədir.** Belə ki, Qərbin siyasi təzyiqlərindən bir anlıq da olsa qurtulmaq üçün Kreml mövcud vəziyyətdən öz maraqları naminə yararlanmağa çalışır. Gəlin Moskvadan məlum problemlə bağlı səsləndirilən bəyanatlara fikir verək.

Rusiyanın xarici işlər naziri Sergey Lavrov ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Tayvana səfərini ABŞ-ın Çini qıcıqlandırmaq üçün qəsdən cəhdi adlandırıb.

Lavrov bu barədə Myanmaya səfəri zamanı deyib. "Mən belə bir qıcıqlanma yaratmaq üçün başqa səbəb görmürəm, çünki bunun Çin Xalq Respublikası üçün nə demək olduğunu çox yaxşı bilirəm", - deyə Lavrov bildirib.

"ABŞ Nensi Pelosinin səfəri ilə digər dövlətlərin hüquqlarına etinasızlıq nümayiş etdirdi, amerikalı diplomatlar isə ictimaiyyətin qəzəbindən qorxub dillərini uddular". Bu sözləri ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Tayvan səfərini şərh edən Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarova öz teleqram kanalında yazıb. "O başa düşür ki, ABŞ təxribatı ilə növbəti dəfə başqa dövlətlərin hüquqlarına etinasızlıq göstərdi. Əgər Vaşinqton Pekin qarşısındakı öhdəliklərini pozdusa, amerikalılar beynəlxalq hüquqa hörmətdən danışmalı deyillər", - Zaxarova qeyd edib.



Rusiya Dövlət Dumasının Təhlükəsizlik və Korrupsiyaya Qarşı Mübarizə Komitəsinin üzvü Adalbi Şxaqoşev ABŞ Konqresinin Nümayəndələr Palatasının spikeri Nensi Pelosinin Tayvana səfərini Avropa İttifaqı və Şimali Atlantika Alyansına alternativ olaraq Rusiya, Çin və Hindistanın iqtisadi və hərbi ittifaqlarının yaradılması üçün siqnal adlandırıb. Şxaqoşev deyib: "Bu səfər Aİ və NATO-ya alternativ olan iqtisadi və hərbi ittifaqlar yaratmaq barədə düşünmək üçün daha bir ciddi siqnaldır. Çin bu gün ANŞ-ın yandırdığı atəşə yağ tökmədi, amma düşünürəm ki, hazırda küləyin istiqamətini müəyyən edir. Çin düzgün cavab axtarışındadır. Çin müdrikliyi öz işini görəcək". Parlamentari hesab edir ki, ABŞ-ın davranışı Çinin suverenliyinə və imicinə xələl gətirir. Göründüyü kimi, Moskva artan gərginlik fonunda Ukrayna böhranı səbəbindən üzləşdiyi və bir çox çətinliklər yaşadığı Qərb koalisiyasına qarşı özünə Çin və Hindistanın timsalında yeni iqtisadji, hərbi-siyasi mü3ttəfiqlər axtarışındadır.

## Dünyanın ən təhlükəli nöqtəsi

**Bir az da Tayvan problemi haqqında. Dünyanın ən təhlükəli nöqtəsi kimi təsvir edilən Tayvan boğazı Çin və Tayvanı ayırır. Boğazın eni 180 kilometrdir. 1949-cu ildə Çin vətəndaş müharibəsi zamanı kommunistlər tərəfindən məğlub olan millətçilər Tayvan adasına qaçıblar.**

2005-ci ildə Çində keçirilən Ümumçin Xalq Nümayəndələri Konqresinin illik iclasında Tayvanın müstəqilliyinə qarşı qanun layihəsi yekdilliklə qəbul edilib. Qanun Tayvanın müstəqilliyini rəsmən elan etdiyi təqdirdə ona qarşı hərbi güc tətbiqini nəzərdə tutur.

Çin Tayvanı bir gün materiklə birləşəcək bir əyalət kimi görsə də, bir çox tayvanlılar ölkələrinin müstəqil olduğunu iddia edirlər. Çin beynəlxalq səviyyədə təcrid etmək istədiyi Tayvanla diplomatik əlaqələri olan bir neçə ölkəyə də təzyiq edir. Pekin administrasiyası 2019-cu ilin əvvəlində Tayvanın müstəqilliyinin fəlakət olacağını elan etdi və Xi Jinping ada dövlətinə hücum edə biləcəklərini söylədi:

> *Ağ Ev Tayvanın müstəqilliyini tanımır. ABŞ Administrasiyası yaxın günlərdə bu mövqeyi ən yüksək səviyyədə Çinin diqqətinə çatdırıb*

"Tayvanda hamı başa düşməlidir ki, müstəqillik böyük fəlakət olacaq. Biz heç bir separatçı addıma imkan verməyəcəyik. Biz güc tətbiq etməyəcəyimizə söz verməyəcəyik, lakin bütün lazımi addımları atmaq hüququnu özümüzdə saxlayacağıq".

Tayvanın ən mühüm müttəfiqi ABŞ-dır. Vaşinqton Çinin müqavimətinə baxmayaraq, 2019-cu ilin aprel və may aylarında Tayvan boğazına hərbi gəmilər göndərib. ABŞ Tayvanla diplomatik əlaqələr qurmasa da, müxtəlif razılaşmalara uyğun olaraq Tayvanı himayə altında saxlayır və bu ölkəyə silah satır. Pentaqonun açıqladığı məlumatlara görə, son 10 ildə Tayvana 15 milyard dollardan çox silah satılıb.

Tayvanın ən mühüm xüsusiyyətlərindən biri iqtisadi gücüdür. Ümumi milli məhsulu 841 milyard dollar olan Tayvan texnoloji məhsullarda inanılmaz istehsal gücünə malikdir. 23 milyon əhalisi olan Tayvan gəlirinin 70 faizini ixracdan təmin edir. Tayvanın ixracının 38,5%-ni elektron komponentlər, 34,8%-ni mikroçiplər, 13%-ni rabitə vasitələri və 8%-ni metallar təşkil edir. Dünyada mikroçiplərin üçdə ikisindən çoxunu istehsal edən Tayvan dünya iqtisadiyyatında mühüm rol oynayır.

✍ *Azad Əliyev*

---

**Politra**

***44 günlük Vətən Müharibəsindən sonra siyasi partiyalar arasında münasibətlərin formaca dəyişməsi, məzmunca müsbət nəticələrə hesablanan addımlar, mülahizələr irəli sürülsə də, "kül altında közün közərdiyi" də müşahidə olunur. Hazırkı mərhələdə aparılan islahatların siyasi partiyalardan da yan keçmədiyi müəyyən nüansları ilə diqqət çəksə də, siyasi partiyaların vaxtaşırı bir-birinin "köhnə yaralarını qopartdığı" müşahidə olunur. Bu istiqamətdə "Həftə içi"nə müsahibə verən Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri Arzuxan Əlizadə maraqlı fikirlər söyləyib.***



**Arzuxan Əlizadə,**
Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri

# Partiyalar büdcədən maliyyələşsin

***- Arzuxan bəy, son bir neçə gündə media və sosial şəbəkələr üzərindən AMİP, Ümid Partiyası arasında bir-birlərinə qarşı ittihamedici, sərt çıxışları görürük. Niyə bu siyasi partiyalar bir-birini ittihamdan əl çəkmir?***

- Əslində, bu məsələ son iki gündə baş verib. Hamıya yaxşı məlumdur ki, ölkədə son 3 il ərzində siyasi partiyalar arasında münasibətlərin istiləşməsi istiqamətində addımlar atılıb. Çox təəssüflər olsun, bəzi siyasi partiya rəhbərləri şou-biznesdə olan müğənnilər kimi tanınmaq, üzə çıxmaq, gündəmdə qalmaq üçün qalmaqallara üstünlük verirlər.

***- Ümid Partiyasının buna ehtiyacı var?***

- Bəlkə də ehtiyacı var ki, bu cür addımlar atır. İki gün əvvəl saytlardan birində yazılmışdı ki, Etibar Məmmədov seçki koalisiyası yaratmaq istəyir. Burada heç bir qəbahət yox idi. Heç kəs də bunu özünə qarşı təhqir kimi qəbul etməməlidir. Amma bu təxəyyülün məhsuludur. Təəssüflər olsun, ondan 2 gün sonra adını çəkdiyiniz siyasi partiyanın sədri, rəhbərliyində olan bir-iki nəfər də eyni qaydada hərəkət etdi.

***- Adını çəkmək istəmirsiniz, küsübsünüz? Ümid Partiyasının sədri İqbal Ağazadə...***

- Xeyr, heç kəsdən də küsməmişik. Sadəcə olaraq, həmin şəxs xoşagəlməz fikirlər bildirdi. Bir yandan deyir, Etibar bəyin şəxsiyyətinə böyük hörmətim var, digər tərəfdən, xoşagəlməz ifadələr səsləndirir. Onun müavinləri, yanında olan bəzi funksionerlər çox yersiz ifadələr səsləndirməklə gündəmə gəldilər. Qarşı tərəfdən də cavablar oldu. Sözün açığı, mən qarşısını almaq istədim. Təhqir bir dəfə olunanda cavabı verilməyəndə qarşı tərəf fikirləşir ki, yox, elə bunların üstünə getmək olar. Bunlar elə hesab edirlər ki, Azərbaycan siyasətində olan adamlar heç nəyi bilmirlər. Axı cəmi 20 il əvvəl olan hadisələr hamının yadındadır...

Əslində, partiyalar arasında bu cür münasibətlərin olmasını istəməzdim.

Hesab edirəm, partiyalar sivil münasibətlər əsasında formalaşmalıdır Partiya sədrləri sivil münasibət, siyasi əxlaq nümayiş etdirməlidirlər ki, cəmiyyət də müsbət fikir oyansın. Amma belə məsələlər üzündən cəmiyyətdə siyasi partiyalara münasibət neqativ olur.

> *Siyasi partiyaların qeydiyyatdan keçməsi ilə bağlı məsələlər sadələşdirilməlidir*

***- 44 günlük müharibədən əvvəl və sonra iqtidar-müxalifət dialoqu, müxalifətin öz arasında dialoq yaratma cəhdləri baş verdi. Düşündük ki, artıq siyasi partiyalar arasında barış elan olunub. Necə hesab edirsiniz, bu gün ölkədə vəziyyətin hələ də gərgin olduğu bir ərəfədə hansısa maraqlı güclər yenə də daxildə vəziyyəti gərginləşdirməyə çalışa bilərmi?***

- Ola bilsin, bu hansısa dairələr vasitəsilə idarə olunan məsələdir. Görünür, kimlərsə maraqlıdır ki, siyasi partiyalar arasında münasibətlər pisləşsin. Azərbaycanda dövlətçiliyi, millli dəyərləri hər şeydən üstün tutan partiyalar var və bu siyasi təşkilatlarla da yolumuza birgə davam edəcəyik. Birgə davam edəcəyik ki, Azərbaycan daha da inkişaf etsin, güclənsin. 44 günlük müharibə zəfərlə bitdi. Amma problemimiz bununla bitibmi, yox. İstər daxildə, istər sərhəddə kifayət qədər gərginlik var. Şimaldan, Cənubdan basqılar var ölkəyə.

***- Postmüharibə dövründə siyasi partiyaların münasibətlərində hansı yenilənmə müşahidə olunur?***

- Təəssüflər olsun, uzun müddət ərzində ölkənin siyasi gündəmində siyasi partiyaların mövqeyi ilə bağlı çox ziddiyyətli məqam yaranmışdı. Xüsusilə də 2002-ci il referendumunda proporsional seçki sistemi ləğv edildikdən sonrakı dövr ərzində siyasi partiyaların bütövlükdə ölkənin siyasi gündəminə təsir etmək imkanları azalan istiqamətdə getdi.

Siyasi partiyalar ölkənin siyasi sisteminin əsas seqmentlərindən biridir və bu təşkilatların ölkəmizin gündəminə təsir etmək imkanlarından məhrum olunması ölkənin inkişafına təsir edə biləcək amillərdən biridir. Ona görə də siyasi partiyalara lazımi şərait yaradılmalıdır. Siyasi partiyalara məhdudiyyətlər qoyulmamalıdır.

***- Bu günlərdə "Siyasi partiyalar haqqında" qanunun qəbul olunmasından danışılır. Necə hesab edirsiniz, qanunda hansı müddəaların yer almasını mühüm hesab edirsiniz?***

- "Siyasi partiyalar haqqında" Qanun 1992-ci ildə qəbul olunub və bugünədək, təxminən, ona 27 dəfə düzəliş olunub. Bu gün "Siyasi partiyalar haqqında" Qanunda bir sıra məqam var ki, onlara düzəlişlər, dəyişiklik, əlavələr edilməlidir.

Birmənalı olaraq hesab edirəm ki. siyasi partiyalar dövlət büdcəsindən maliyyələşməlidir. Dövlət büdcəsi hər birimizin dövlət büdcəsinə verdiyimiz vergilər hesabına formalaşır. Həmin büdcədən dövlətin vacib institutlarından biri olan siyasi partiyaların maliyyələşməsi olduqca mühüm məsələdir. Belə olmayacağı təqdirdə, siyasi partiyalar qaranlıq mənbələrdən maliyyələşə bilirlər ki, bu da hər bir halda dövlətin əsaslarına təhlükə yarada biləcək amildir.

Siyasi partiyaların qeydiyyatdan keçməsi ilə bağlı məsələlər sadələşdirilməlidir. Siyasi partiyanın mövcudluğuna, yaxud sıradan çıxmasına insanlar özləri qiymət verməlidirlər. Bir siyasi partiya normal rəqabətli seçkilərdə uğur qazanmırsa, parlamentdə təmsil oluna bilmirsə, bələdiyyələrdə təmsil oluna bilmirsə, prezident seçkilərində iştirak etmirsə, onun fəaliyyəti böyük sual yaradır. Ona görə də belə partiyaların ləğvi məsələsi də qoyula bilər.

***- Parlamentdə təmsil olunan müxalifət partiyasının nümayəndəsi təkliflə çıxış edib ki, siyasi partiya rəhbəri, həm də dövlət qulluqçusu statusuna malik olmalıdır. Sizcə, bu status nəyi dəyişəcək, əhəmiyyəti nədir?***

- Bunların hər biri ayrı-ayrılıqda müzakirə oluna biləcək məsələlərdir. Partiyalarda rəhbərlikdə təmsil olunan çoxlu vətəndaşımız var ki, bu gün heç yerdə işləmirlər və müəyyən yaşa çatdıqda fəaliyyətlərinə görə təqaüd ala bilmirlər.

Bu yaxınlarda Müsavat Partiyasının uzun müddət başqanı olmuş İsa Qəmbərə bu səbəbdən 180 manat müavinət təyin olundu. Baxmayaraq ki, uzun müddət partiya sədri olub, bir müddət parlament spikerinin müavini olub, amma iş yeri qeyd olunmadığına, vergi ödəmədiyinə görə ona müavinət verilmədi. Bundan əvvəl bizim istiqlalçı deputatlarımız oldu ki, deputatlara verilən müavinətlərdən kənarda qaldılar. Qanunvericiliyə dəyişiklik olunmalıdır.

***- Partiyalara ofislər veriləndə, iqtidar partiyaları ilə bir yerdə işğaldan azad olunmuş rayonlara səfərlərə gedib, birgə tədbirlər keçirən zaman sizə qısa şəkildə desək, "hakimiyyətə qulluq edən müxalifət" adı qoyuldu. Partiyalara maliyyə ayrılarsa, hansı münasibət sərgilənəcək? Partiyalara maliyyə ayrılarsa, cəmiyyətdən növbəti qınağa tuş gəlmə ehtimalı varmı?***

- Birincisi, qərargahların verilməsi ilə bağlı çox yanlış yanaşmalar oldu. O yanaşmanı ortaya atan partiyalardan biri də Müsavat Partiyası idi. Hansı ki, 2001-ci ildə bizim qərargahımız əlimizdən alınan vaxt Müsavat Partiyasına dövlət tərəfindən qərargah verilmişdi. Məhz onlar da partiyalara qərargahlar veriləndə başladılar ki, "hakimiyyətə işləyəcəklər" və sair... Xalq Cəbhəsi Partiyası da qərargahla təmin olunmuşdu, amma onlar da buna qarşı danışdılar. Bir çox hallarda dövlətlə hakimiyyəti qarışdırırlar. Qərargahın verilməsi dövlətin borcudur və burada qəbahət yoxdur.

Bu, siyasi partiyanın fəaliyyətinə müsbət təsir edə bilər. Biz eyni zamanda şəffaf maliyyələşməni nəzərdə tuturuq və bu da Azərbaycan dövlətinin büdcəsi hesabına ola bilər. O büdcədən maliyyələşmə hakimiyyətədən maliyyələşmə deyil. Ona görə də bu, siyasi partiyaların fəaliyyətinə bu və ya digər formada təsir etməyəcək. Cəmiyyət buna da hazır olmalıdır. Cəmiyyət doğru-düzgün məlumatlandırılmalıdır ki, kənar fikirlər səslənməsin.

✍ *Tahirə Qafarlı*

# İctimai müzakirələr təşkil olunsun

## Böyük Qayıdış layihələri ilə bağlı

**Odlar Yurdu Universitetinin professoru, iqtisadi ekspert Elşad Məmmədovla hafta.az üçün növbəti söhbətimizdə işğaldan azad torpaqlara Böyük Qayıdış proqramının icrası zamanı neqativ halların, korrupsiyanın qarşısının alınması, tikinti, bərpa-quruculuq layihələrin icrası zamanı şəffaflığın qorunması, işğaldan azad torpaqlara dönən vətəndaşların işlə mümkün qədər tez təmin olunması və s. mövzularda danışdıq.**



**Elşad Məmmədov,**
professor, iqtisadçı
ekspert

### Müsahib

***- Elşad bəy, işğaldan azad torpaqlara Böyük Qayıdış proqramının icrası zamanı neqativ hallardan qorunmaq üçün hansı iqtisadi və hüquqi mexanizmlərdən yararlanmaq olar?***

- Sözsüz ki, neqativ halların olması, korrupsiyaya meyilliyin mövcudluğu, iqtisadi proseslərə, sosial həyata öz mənfi təsirini göstərməkdədir. Bununla yanaşı, müasir şəraitdə həmin neqativ hallarla, korrupsiya ilə mübarizə ilə bağlı dövlətin imkanları sovet dövrü ilə müqayisədə xeyli dərəcədə artıb. Hazırda rəqəmsallaşma bütün əmək münasibətlərinin təxminən 90 faizini tam şəkildə əhatə edə bilər ki, bu da hər hansı neqativ halların olmasının qarşısını ala bilər. Yeri gəlmişkən, son illərdə elektronlaşma ilə, şəffaflaşma ilə bağlı tədbirlər də bunun nümunəsidir, bunun göstəricisidir. Faktiki olaraq doğrudan da kölgə iqtisadiyyatıyla mübarizə nöqteyi-nəzərindən iqtisadiyyatın leqallaşdırılması baxımından müsbət nəticələr mövcuddur. Ona görə də işğaldan azad olunmuş ərazilərdə bərpa, quruculuq işləri və orada formalaşan iqtisadi idarəetmə ilə bağlı neqativ halların, korrupsiya meyillərinin aradan qaldırılması istiqamətində düşünürəm ki, müsbət nəticələri gözləmək mümkündür. Ölkə Prezidentinin də qeyd etdiyi kimi, həmin bölgədə formalaşacaq iqtisadi idarəetmə sistemini sonra tədricən digər bölgələrə də yaymaq lazım olacaq...

***- Sizdə məlumat varmı ki, Zəngilanın Ağalı kəndindəki "ağıllı kənd" layihəsinə nə qədər vəsait sərf olunub və həmin layihə konkret hansı yerli və ya xarici şirkətlər tərəfindən icra olunub? Və yaxud bundan sonra gözlənilən Füzulinin Dövlətyarlı kəndindəki "ağıllı kənd" layihəsinə nə qədər vəsait ayrılıb və onun icrasını hansı şirkətlər həyata keçirəcək?***

- Burada qeyd olunmalı bir məqam var. Söhbət ondan gedir ki, bəhs edilən layihələrlə bağlı sifarişçi dövlət qurumları internet səhifələrində kütləvi informasiya vasitələrində elanlar yerləşdirə bilər. Hansısa məlumatlar səsləndirilir. Həmçinin böyük ehtimalla podratçı şirkətlər barədə də məlumatlar sosial şəbəkələrdə, internet resurslarında tapıla bilər. Amma əsas problem o deyil ki, həmin şirkətlər barədə məlumatlar yoxdur. Əsas məsələ ondan ibarətdir ki, ictimai müzakirələr təşkil olunmalıdır. Dövlət qurumları ekspert cəmiyyətlərinə, ictimai sektor nümayəndələrinə, qeyri-hökumət təşkilatlarına müraciət etməlidir və birgə müzakirələr aparılmalıdır. Dövlət qurumları qapalı fəaliyyət göstərməməlidir. Yalnız hansısa saytlarda elanların yerləşdirilməsi ilə məsələ məhdudlaşmamalıdır. Misal üçün, hansısa rayon icra hakimiyyəti hər hansı bir parkda ildə 5 dəfə təmir işləri aparırsa və bunu əsaslandırırsa ki, orada bu işlərin görülməsinə ehtiyac var, amma ictimai fikir bununla razılaşmırsa, onda bu tədbirlərin keçirilməsinə nə ehtiyac var. Həmçinin müstəqil mütəxəssislərin də cəlb olunması təmin edilməlidir. Əks halda, sözsüz ki, hansısa dövlət qurumlarının öz rəsmilərinin maraqlarından, maraqlar konfliktindən söhbət gedə bilər ki, orada da müəyyən neqativ hallar mümkün ola bilər. Əgər həmin qurumdakı insanların buna meyli varsa... Mütəxəssislərin, özü də tamamilə müstəqil mütəxəssislərin proseslərə qoşulması, düşünürəm, tamamilə müsbət nəticələrə səbəb ola bilər...

***- İşğaldan azad torpaqlara dönən vətəndaşların işlə mümkün qədər tez təmin olunması, sosial müdafiəsinin təşkil edilməsi üçün hansı tədbirlər görülməlidir?***

- İşğaldan azad bölgələrdə, ilk növbədə, işgüzar mühit formalaşdırılmalıdır, investisiyalar artmalıdır, iqtisadiyyatda pul kütləsi artmalıdır. Əks halda, bəhs edilən ərazilərdə məşğulluğun təmin olunmasını, nə də həmin bölgələrdə və bütövlükdə ölkədə yerli real istehsal sektorunun inkişafını təmin edə bilməyəcəyik. Biz bazar iqtisadiyyatı şəraitində yaşayırıq. Elə əksəriyyət düşünür ki, dövlət iş yerləri açsın, dövlət müavinət ödəsin, müavinətləri artırsın və s. Amma bunların hamısının iqtisadi əsasları olmalıdır. Bu iqtisadi əsas gücü, rəqabət qabiliyyətli və yüksək texnoloji iqtisadiyyatla bağlıdır. Bunlar olmayan halda dövlət tərəfindən görülən tədbirlərlə biz inflyasiya, digər iqtisadi problemlər, məşğulluğun qeyri-tarazlı olması, yəni hansısa bir iqtisadi sektorda çalışanların sayının başqa sahələrdən çox olması və s. kimi problemlərlə, qeyri-tarazlı sosial inkişafla mübarizə apara bilmərik. Təsəvvür edin ki, əgər ölkənin real iqtisadi gücünün tam əksəriyyəti, böyük əksəriyyəti iqtisadiyyatın bir sahəsində - neft-qaz sektorunda formalaşırsa və həmin sektorda çalışanların sayı olduqca məhduddursa, onda hansı tarazlı sosial-iqtisadi inkişafdan söhbət gedə bilər? Bu halda dövlət məcbur olur ki, başqa sahələrdə çalışan insanlara sosial müavinətlər versin, hansısa ödənişlər etsin. Dövlətin bunları etməsi real iqtisadi mexanizmin lazımi səviyyədə işləməməsi ilə bağlıdır. Dövlət sosial ödənişləri əhalinin fiziki imkanları məhdud olan digər həssas kateqoriyalarına etməlidir. Əhalinin əksər hissəsinin sosial ödənişlər və dövlət tərəfindən açılan yeni iş yerləri vasitəsilə xərclərini qarşılamağa çalışması bazar iqtisadiyyatında adekvat yanaşma hesab oluna bilməz. Ona görə də iqtisadiyyatda tamamilə fundamental olaraq inkişaf prosesləri, investisiyalara, real iqtisadi dəyərin yaradılmasına bağlı fundamental iqtisadi proseslər getməlidir ki, bunlar hesabına yeni iş yerləri açılsın, bunlar hesabına istehsal artsın, yerli istehlak bazarında yerli istehsalı görək. Özü də 70 faiz ölkəmizdə həyata keçirilən yerli istehlak malları lazımdır. Belə olan halda yeni iş yerləri də olacaq. Özü də yüksək əməkhaqqı tutumlu... Belə olan halda ixracımız da şaxələndiriləcək, inflyasiya ilə mübarizə də effektiv olacaq. Odur ki, bütün bu proseslərdə sistemli və kompleks yanaşmalar olmalıdır.

> "
> *İşğaldan azad bölgələrdə, ilk növbədə, işgüzar mühit formalaşdırılmalıdır, investisiyalar, iqtisadiyyatda pul kütləsi artmalıdır*

***- Bu saat vətəndaşları, xüsusən yaxın gələcəkdə həmin torpaqlarda məskunlaşacaq məcburi köçkünləri narahat edən problemlərdən biri işğaldan azad ərazilərə, xüsusən Kəlbəcər, Laçın, Qubadlı rayonlarına müxtəlif adlar altında gedən şəxslərin oradakı yerüstü və yeraltı sərvətlərin qanunsuz istismarıyla məşğul olmaları, məsələn, vəhşi heyvan, quş və balıqların qeyri-qanuni və bəzən də vəhşicəsinə ovlanması, ağacların qırılması, meşələrin yandırılması, həmçinin salamat və ya nisbətən salamat qalmış yaşayış və inzibati binaların talan edilməsi və s. barədə informasiya və şayiələrdir...***

- Hesab edirəm, Azərbaycan dövlətinin istər işğaldan azad edilmiş, istərsə də digər ərazilərdə ölkənin təbii sərvətlərinin istismarı zamanı baş verə biləcək qanun pozuntularının qarşısını almaq üçün kifayət qədər gücü var. Azərbaycanın təbii resurs bazası, o cümlədən işğaldan azad edilmiş torpaqlardakı resurslarımız milli iqtisadiyyatımızın inkişafına, ölkə əhalisinin sosial rifahının yüksəlməsinə xidmət etməlidir. Həmin resurslar bütün xalqın sərvəti kimi qəbul olunmaqla müvafiq qanun-qaydalar çərçivəsində istifadə olunmalıdır. Eyni zamanda bu proses gələcək nəsillərə də həmin təbii resurs bazasının effektiv şəkildə saxlanılmasıyla reallaşdırılmalıdır. Yəni təbii sərvətlərimiz yalnız ayrı-ayrı fərdlərin iqtisadi maraqlarına deyil, xalqın və dövlətin uzunmüddətli, dayanıqlı maraqlarına uyğun istismar edilə və idarə oluna bilər. Burada müvafiq dövlət qurumlarının sərt qanunlar çərçivəsində, amma eyni zamanda görülən tədbirlərin ictimaiyyətə çatdırılması şərti ilə fəaliyyətinə ehtiyac var.

***- Hazırda Azərbaycanda turizm infrastrukturundakı qiymətlər, qonşuluqdakı, regiondakı, hətta Türkiyə və Avropanın bəzi ölkələrindəki qiymətlərdən çox bahadır. Hələ Böyük Qayıdış başa çatmamış Şuşa şəhərindəki otellərin, restoranların həddindən artıq baha qiymətlər olması da məlumdur. Əgər gələcəkdə də Qarabağda, Zəngəzurdakı turizm və istirahət obyektlərində belə qiymətlər tətbiq olunarsa, dövlət büdcəmiz həmin sahələrdən gözlənilən gəlirləri götürə biləcəkmi?***

- Təəssüflər olsun ki, dediyiniz hal yalnız turizm sektoruna yox, bütövlükdə iqtisadiyyatımıza xasdır. Faktiki olaraq biz iqtisadiyyatımızda alıcı bazarını deyil, bir çox hallarda satıcı bazarını müəyyənləşdirmişik. Bu da onunla izah olunmalıdır ki, bazarlarda inhisarçı mövqelərin çox olması istər-istəməz qiymət artımına şərait yaradır. Rəqabət mühitinin zəif olması qeyri-iradi satıcının alıcıya diqtə etməsinə şərait yaradır. Bax, bu böyük bir problemdir.

Həmin problemdən çıxış yolu kimi o cümlədən turizm sektorunda daha çox şirkətin bazarda olmasını təmin etməliyik və daha çox rəqabətin olmasına şərait yaratmalıyıq. Bu üsulla biz istehsalçıların, alıcıların bazarını formalaşdıra bilərik ki, alıcının seçim imkanı olsun: hansı turizm şirkətinə, müraciət etsin, hansı oteldə qalsın, hansı xidmət satıcısının xidmətini əldə etsin. Ona görə də biz bu prosesi, yəni real rəqabət mühitini formalaşdırmayınca istər hazırda fəaliyyətdə olan turizm zonalarında, istərsə də işğaldan azad torpaqlarımızda yaradılacaq zonalarda qiymət artımıyla dayanıqlı və effektiv mübarizə apara bilməkdə çətinliklərlə üzləşəcəyik...

✍ Sultan Laçın

## "Qisas" əməliyyatı



### Düşmənə ağır zərbə vuruldu

◄ əvvəli 1-ci səhifədə

Məlumatda bildirilib ki, Rusiya Federasiyası sülhməramlı kontingentinin müvəqqəti yerləşdiyi Azərbaycan ərazisindəki qeyri-qanuni erməni silahlı dəstələrinin üzvlərinin avqustun 3-ü səhər saatlarında Laçın rayonu istiqamətində yerləşən Azərbaycan Ordusunun bölmələrinin mövqelərini intensiv atəşə tutması nəticəsində müddətli həqiqi hərbi xidmət hərbi qulluqçusu əsgər Kazımov Anar Rüstəm oğlu aldığı güllə yarasından şəhid olub. Hadisə yerinə baxış keçirilib, o cümlədən zəruri prosessual hərəkətlər yerinə yetirilib. Faktla bağlı Qubadlı hərbi prokurorluğunda Cinayət Məcəlləsinin 120.2.12-ci (milli, irqi, dini ədavət və ya düşmənçilik niyyəti ilə adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb. Hazırda istintaq davam edir.

■ **Politoloq Elxan Şahinoğlu hesab edir ki, əgər sülh sazişi yoxdursa, istənilən halda atəşkəs rejiminin pozulmasını gözləməliyik. Onun sözlərinə görə, atəşkəs rejiminin pozulmasında ermənilərin təşviq edən məsələlərdən biri də onların cəzasızlıq vəziyyətidir.**

Ekspert bildirir ki, sülhməramlılar öz çətirləri altında atəşkəsin pozulması üçün ermənilərə şərait yaradırlar. "Azərbaycan Prezidentinin Ermənistana verdiyi son net mesaj ondan ibarət idi ki, erməni silahlı qüvvələr ya ərazilərimizdən çıxarılmalı, ya da özümüz bunu təmin etməliyik. Bunun qarşılığında Ermənistan tərəfi Qarabağa ezam olunmuş hərbçilərini çıxaracağı barədə bəyanat verdi. Bu o deməkdir ki, ermənilər silahlı birləşmələri ərazilərimizdə saxlamağı düşünürlər. Bununla da ermənilər siyasi krizi dalana dirədilər". E.Şahinoğlu bildirir ki, əgər Ermənistan tərəfi belə bəyanat verməsəydi, bir fikir yarana bilərdi ki, Rusiya sülhməramlıları qeyri-qanuni erməni birləşmələrini çıxarılmasını təmin edəcəklər. Amma verilən bəyanata görə onlar buradan çıxmaq fikrində deyillər.

"Siyasi böhran dalana dirənibsə, deməli, dövriyyəyə hərbçilər daxil olublar. Erməni silahlıları bir qədər də aqressivlik göstərirlər. Xüsusən də sülhməramlıların nəzarətində atəşkəsin pozulması, bu bölgədə əsgərimizin şəhid olması Azərbaycan siyasi-hərbi rəhbərliyi tərəfindən qəbul ediləcək durum deyil. Yəni bunun qarşılığında erməni mövqeləri darmadağın edilməklə bərabər, onlar tərəfindən veriləcək itkiləri biz gözləməliyik. Bu, çox ciddi bir vəziyyətdir. Hər an Silahlı Qüvvələrimiz antiterror əməliyyatına başlaya bilər. Qarabağda şəhid verirkik. Azərbaycan Silahlı Qüvvələri hansı addımları atsalar məqbuldur. Ermənistan üçtərəfli bəyanatı yerinə yetirmir. Rusiya hərbi rəhbərliyi onları dəstəkləyir. Qeyri-qanuni birləşmələri təşviq edir, ermənilərin bölgədən çıxarılmasına dair mesaj vermirlər. Rusiya hərbi-siyasi hakimiyyəti Qarabağdakı qeyri-qanuni qurumu dəstəkləyir. Onlar üçtərəfli sazişə əməl etmirsə, Azərbaycan nəyə görə öhdəlikləri yerinə yetirməlidir?".

■ **Hərbi ekspert Emin Həsənli hafta.az-a açıqlamasında bildirib ki, Qarabağda atəşkəsin pozulması erməni silahlılarının özbaşınalığı və Rusiya sülhməramlılarının onları tətikləməsi, cinayətlərinə göz yumması ilə bağlı yaranıb.**

"Allah Şəhidimizə rəhmət eləsin. O, canını Azərbaycanın bütövlüyü uğrunda qurban verib. Şəhidimizin qisası alınmalıdır". E.Həsənli bildirir ki, bu gün ermənilər götürdüyü öhdəlikləri yerinə yetirmir, Rusiya sülhməramlıları da bunlara qarşı konkret ölçü götürmür.

"Azərbaycan Ordusuna atəş açanlar həbs edilməli, Azərbaycan hüquq -mühafizə orqanlarına təhvil verilməlidir. Bu, qəbuledilməz faktdır. Cinayət törədənlər cəzalanmalıdırlar. Azərbaycan xalqının səbri bu cinayətlərə sonuna qədər dözməyəcək. "Ermənistan kapitulyasiyaya imza atsa da, sülh danışıqlarının bağlanması və üçtərəfli sazişin icra edilməsi istiqamətində aparılan danışıqlar, hələ ki, heç bir nəticə vermir. Brüsseldə, Moskvada bir neçə görüş keçirildi, üçtərəfli bəyanat imzalandı. Ermənilər heç bir bəyanata əməl etmirlər. Erməni silahlı qüvvələri qeyri-qanuni fəaliyyət göstərir, cinayət törədirlər. Azərbaycanın buna cavabı sərt olacaq. Bu dəfə daha ağır cəza olacaq. Ermənistan, onun havadarları bunu nəzərə almalıdır. Rusiya üçtərəfli sazişə əməl etməlidir və dünyaya da göstərməlidir ki, haradasa sülhün bərqərar olmasına dəstək verir. Rusiya heç olmasa özünün imzasına hörmət etməli, bu cür halların baş verməsinə qarşı çıxmalıdır".

Hafta.az xəbər verir ki, artıq separatçı rejim təmsilçiləri vəziyyəti daha da gərginləşdirə biləcək addımlar atmağa başlayıb. Belə ki, qondarma separatçı rejimin rəhbəri Arayik Arutyunyan rus hərbçilərinin nəzarətində olan ərazilərdə "səfərbərlik" elan olunması ilə bağlı qərar verib.

Qeyd edək ki, bölgədəki rus hərbçiləri qanunsuz silahlı birləşmələrin tərksilah edilməsi ilə bağlı hüquqi məsuliyyət daşıyırlar. İndi onların nəzarətində olan ərazilərdə "səfərbərlik" adı altında bu terrorçu qrupların sayının artırılmasının müəyyən nəticələr doğuracağı qaçılmazdır.

✍ Azad Əliyev



■ **Ukraynanın şərqi uğrunda qanlı müharibə davam edərkən, İngiltərə mətbuatı Rusiyanın sirr olaraq saxladığı məlumatları əldə edib. Döyüşməkdən imtina edən rus əsgərlərinin taleyi bəlli olub.**

Britaniyanın Guardian qəzetində çıxan xəbərə görə, yüzdən çox rus əsgəri döyüşməkdən imtina etdiyi üçün həbs edilib. Eyni hesabata görə, Ukraynanın şərqində 140-a yaxın əsgər dəmir barmaqlıqlar arxasında saxlanılır. Minalarla əhatə olunmuş hərbi hissədə saxlanılan əsgərlərin qaçmasının qarşısını almaq üçün bölgəni muzdlular qoruyur. Əsgərləri təmsil edən vəkil qəzetə deyib ki, Putin qüvvələri fevral ayında Ukraynaya hücuma başlayıb, lakin heç vaxt rəsmən müharibə elan etməyib.



■ **Azərbaycan Respublikasının Minatəmizləmə Agentliyi (ANAMA) ilə Fransa Respublikasının ölkəmizdəki səfirliyi arasında 3 avqust 2022-ci il tarixində Azərbaycanda həyata keçirilən humanitar minatəmizləmə fəaliyyətinə dəstək məqsədilə təqdimat mərasimi keçirilib.**

Agentliyin Horadiz regional mərkəzində baş tutan tədbirdə 25 fevral 2022-ci il tarixli Niyyət Bəyannaməsinə əsasən ANAMA-ya Fransa səfirliyi tərəfindən 130 ədəd minaaxtaran detektor hədiyyə edilib. Baş tutan təqdimat tədbirində ANAMA İdarə Heyətinin sədri Vüqar Süleymanov və Fransanın ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Zakari Qros çıxış ediblər. Vüqar Süleymanov qurumun fəaliyyətindən danışıb.



■ **Qardaşlaşmış və tərəfdaş şəhərlər xətti ilə Ukrayna şəhərləri tərəfindən edilmiş müraciətlərə cavab olaraq Bakı və Gəncə şəhərləri Ukrayna xalqına ərzaq məhsullarından ibarət humanitar yardım göndərib.**

Bakı şəhəri tərəfindən 66 ton, Gəncə şəhəri tərəfindən isə 35 ton olmaqla ümumi çəkisi 101 ton olan humanitar yardıma saxlama müddəti uzun olan qida məhsulları (konservlər, dənli bitkilər, quru qidalar, çay və s.) daxildir. Polşanın Varşava hava limanına təyyarə ilə çatdırılacaq humanitar yük dünən saat 16:30-da Ukraynanın ölkəmizdəki səfiri, Bakı və Gəncə şəhərləri icra hakimiyyətlərinin nümayəndələrinin iştirakı ilə Heydər Əliyev adına Beynəlxalq Hava Limanından yola salınıb.



■ **Xocavənd rayonunun Hadrut qəsəbəsində yerləşən qədim Alban məbədi növbəti dəfə Udilər tərəfindən ziyarət olunub.**

Alban-Udi Xristian Dini İcmasının üzvləri Xocavəndin Çinarlı kəndində Ağxaç kilsəsində olublar. Uzun illərdən sonra X-XII əsrə aid olan kilsələr əsl sahibləri olan alban udiləri qarşılayır.

Onlar burada dini ayin icra edərək, şamlar yandırıb, dualar oxuyublar. Qeyd edək ki, Xocavənd rayonunun Hadrut qəsəbəsində? yerləşən Alban kilsələri tarix-memarlıq abidəsi olaraq Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi tərəfindən ölkə əhəmiyyətli abidə kimi qeydiyyata alınıb.



■ **Energetika Nazirliyinin işçilərinin say həddi artırılıb. Bu, Prezident İlham Əliyevin müvafiq fərmanında əksini tapıb.**

Fərmana əsasən, Energetika Nazirliyinin işçilərinin say həddi cəmi 200 ştat vahidi olmaqla, Nazirliyin Aparatı üzrə 160 ştat vahidi, Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi üzrə 40 ştat vahidi müəyyən edilib. Bundan əvvəl Energetika Nazirliyinin işçilərinin say həddi cəmi 180 ştat vahidi olmaqla, Nazirliyin Aparatı üzrə 140 ştat vahidi, Azərbaycan Respublikasının Energetika Nazirliyi yanında Bərpa Olunan Enerji Mənbələri Dövlət Agentliyi üzrə 40 ştat vahidi müəyyən edilmişdi.



■ **Ukrayna Rusiya qazının Avropaya tranziti üçün Rusiyadan müntəzəm olaraq pul qəbul etməkdə davam edir. Bu barədə çərşənbə günü Rusiya Federasiyası Prezidentinin mətbuat katibi Dmitri Peskov bildirib.**

"Biz işləyən yeganə xətt vasitəsilə ukraynalılara tranzit üçün pul ödəməyə davam edirik. Təcavüzkar təcavüzkarlığında, pulu (Ukraynalılar) isə qəbul edirlər və ödəniş keçirilir", - Kreml sözçüsü bildirib. Moskvanın nizamlama şərtləri Kiyevə yaxşı bəllidir və onlar bu və ya digər şəkildə təmin ediləcək, Dmitri Peskov bildirib. Əlavə olaraq, o həmçinin Rusiya Federasiyasının Ukrayna problemini diplomatiya yolu ilə, lakin öz şərtləri əsasında həll etməyə hazır olduğunu qeyd edib.

# Payızda yeni inflyasiya dalğası

**_Hazırda bir sıra kənd təsərrüfatı məhsulları üzrə istehsal və tədarük mövsümü olsa da, qiymətlər yenə ucuzlaşmır. Qiymətlər nəinki düşmür, heç sabit də deyil. Belə ki, keçən ilin əvvəlindən start götürən bahalaşma hələ də davam edir. Və inflyasiya əvvəlki tək 12 faizin üzərindədir, ərzaqlarda isə daha yüksəkdir. Ümumiyyətlə, ümumi bahalaşma və inflyasiya prosesində qida və kənd təsərrüfatı məhsullarının qiymət yüksəkliyi əsas təkanverici faktor olaraq qalır. Nəzərə alsaq ki, təxminən 1 ay sonra kənd təsərrüfatı məhsulları üzrə istehsal və tədarük mövsümü də başa çatır._**



## İqtisadiyyat

Eyni zamanda, sentyabrda yeni dərs ilinin başlaması, insanların istirahətdən qayıtması ölkədə iqtisadi aktivliyi artıracaq. Bu da istər-istəməz qiymətlərdə özünü göstərəcək. Və bununla belə təəssürat yaranır ki, payızda və üzü qışa doğru bahalaşma daha yuxarı tempdə olacaq.

Yeri gəlmişkən, Azərbaycan hökuməti 2022-ci ildə ölkədə mümkün inflyasiya proqnozunu 4 dəfədən çox artırıb. Bu barədə Maliyyə Nazirliyinin 2022-ci ilin birinci yarısında dövlət büdcəsinin icrasına dair arayışında məlumat verilir. Arayışda bildirilir ki, büdcə layihəsi hazırlanan zaman təqdim olunmuş 4 faizlik orta illik inflyasiya proqnozu faktiki göstəricilər, gözlənilən meyillər, o cümlədən büdcəyə yenidən baxılması ilə yaranacaq əlavə investisiya xərclərinin təsiri nəzərə alınmaqla artırılıb. Müvafiq göstəricinin ilin sonuna 12,5 faiz təşkil edəcəyi gözlənilir.

*Daha çox bahalaşma kərə yağı, un və un məmulatları, bitki yağı, ət və ət məhsullarında baş verəcək*

Sənəddən aydın olur ki, 2022-ci ilin dövlət büdcəsinin layihəsi hazırlananda İqtisadiyyat Nazirliyi tərəfindən təqdim edilmiş proqnozlara əsasən, ÜDM-in həcmi 86,6 milyard manat, qeyri-neft ÜDM-in 60,4 milyard manat, real artım tempi isə müvafiq olaraq 3,9 və 4,9 faiz səviyyəsində götürülsə də, 2022-ci ilin ötən dövrünün makro-iqtisadi nəticələri ilə yanaşı, fiskal icra göstəriciləri və əmtəə bazarlarının dinamikası cari il üzrə makroiqtisadi proqnozların dəqiqləşdirilərək yenilənməsini şərtləndiib. Qlobal miqyasda davam edən proseslər və enerji resursları ilə bağlı yüksək qiymət gözləntiləri nəzərə alınaraq, iqtisadi artım proqnozları yenilənən zaman xam neftin bir barrelinin qiyməti dövlət büdcəsi üzrə ilkin nəzərdə tutulmuş orta illik ixrac qiymətindən (50 ABŞ dolları) artırılaraq 85 ABŞ dolları səviyyəsində götürülüb.

Hökumət hesab edir ki, il ərzində yuxarı neft qiymətlərinin neft ÜDM-in nominal artımının əsas hərəkətverici qüvvəsini təşkil edəcəyi, lakin bu sektorda real artımın kiçik olacağı, həmçinin qeyri-neft ÜDM-in müşahidə edilən yüksək real artım tempinin ilin növbəti aylarında da davam edəcəyi gözlənilir: "Dövlət büdcəsinə yenidən baxılması ilə artırılmış büdcə xərclərinin əhəmiyyətli hissəsini investisiya yönümlü xərclərin təşkil etdiyini və bu xərclərin iqtisadi artıma təsirini nəzərə alaraq, 2022-ci ilin dövlət büdcəsi zərfində qeyd olunan qeyri-neft sektoru üzrə ÜDM-in real artım tempinə dair proqnoz 4,9 faizdən 5,5 faizə qaldırılıb. ÜDM-in real artımı 3,4 faiz olmaqla nominal ifadədə 115,4 milyard manata, habelə qeyri-neft sektoru üzrə 65,7 milyard manata qədər artacağı proqnozlaşdırılır. Ümumilikdə 2022-ci ilin dövlət büdcəsi zərfində nəzərdə tutulan proqnozla müqayisədə ÜDM üzrə 28,8 milyard manat əlavə nominal artım proqnozlaşdırılıb ki, bunun da əsas hissəsi - 23,5 milyard manatı neft sektorunun, yerdə qalan 5,3 milyard manatı isə qeyri-neft sektorunun hesabına formalaşacaq".

■ **Məsələ ilə bağlı hafta.az-la fikirlərini bölüşən iqtisadçı-ekspert Akif Nəsirli deyib ki, hazırda söhbət inflyasiyanın nisbi sabitləşməsindən gedir: "Hazırda inflyasiya davamlı şəkildə irəli gedir. Sadəcə, təxminən 10 faiz həcmində aşağı düşüb.** Bu da hazırda kənd təsərrüfatı məhsullarının mövsümü ilə əlaqədardır. Payıza doğru mövsümü məhsullar bitəcək. Yəni, mövsümün bitməsi ilə bağlı inflyasiya təhdidləri daha da sürətlənəcək. Təxminən noyabr ayından başlayaraq inflyasiyanın daha sürətlə irəlilədiyinin şahidi olacağıq. Bu il üçün ərzaq məhsullarında hesab edirəm ki, 20 faiz inflyasiya baş verəcək. Düzdür, hökumətin hesablamaları bu qədər yüksək inflyasiyanı göstərməyəcək. Amma düşünürəm ki, ərzaq məhsulları ən azı 20 faiz bahalaşacaq. Umumilikdə isə 12-15 faiz inflyasiya müşahidə edəcəyik. Daha çox bahalaşma kərə yağı, un və un məmulatları, bitki yağı, ət və ət məhsullarında baş verəcək".

■ **Mövzu ilə bağlı bizimlə fikirlərini bölüşən iqtisadçı-ekspert Fuad İbrahimli isə hesab edir ki, ötən aylarla müqayisədə hazırda inflyasiya prosesində sabitləşmə müşahidə olunur: "Artıq inflyasiya sürətini itirib.** Nəzərə almaq lazımdır ki, inflyasiyanın əsas səbəbi pandemiya dövründə yaranmışdı. Çünki bir çox ölkələrin əksəriyyəti pandemiya dövründə fiskal və monetar siyasətə üz tutdu. Bu da öz növbəsində dünya iqtisadiyyatının "sunami dalğası"na bənzər inflyasiyaya məruz qalmasına səbəb oldu. Yəni, bunun proqnozu əvvəlcədən edilmişdi. Demək olar ki, 2021-ci il inflyasiya ili kimi tarixdə qaldı. Bu təhdiddən Azərbaycan da kənarda qalmadı. Həm idxal, həm də istehsal inflyasiyası bazarlarda aydın şəkildə hiss olunur. 2021-ci ilin yanvar ayında dizelin və 92 markalı benzinin qiyməti artanda artıq proqnoz verilmişdi ki, bu da bahalaşmaya bir səbəb olacaq. Düzdür, indi dünyanı bürüyən inflyasiya nisbətən səngiyib. Lakin digər problemlər yaranıb. Və bugda, bitki yağları kimi məhsullar ciddi şəkildə bahalaşıb. Bu da Rusiya və Ukrayna arasındaki müharibədən qaynaqlanır və yeni inflyasiya dalğasının yaranmasına imkan yarada bilər. Əsasən də bu üçüncü və dördüncü rübdə gözlənilir. Əlbəttə ki, bu münaqişə bitməzsə və belə davam edərsə o zaman biz artıq proqnozdan da kənar bir vəziyyətlə rastlaşa bilərik. Mövcud vəziyyət tək Azərbaycana deyil, bütün dünyaya təsir edəcək. Ancaq ilk növbədə bizə təsir edəcək. Çünki Azərbaycanın hər iki ölkə ilə geniş ticarət əməkdaşlığı var. Bizim buğda, bitki yağı kimi məhsullardan asılılığımız var. Digər tərəfdən isə hökümətin anti-inflyasiya tədbirləri davam edir. Birinci rübdə artıq ölkə rəhbərliyi özü ikirəqəmli inflyasiyanın olduğunu vurğuladı. Yəni, vəziyyət budur. Burada gizlədiləsi bir şey də yoxdur. Əgər münaqişə bitərsə, artıq dünyada, o cümlədən də Azərbaycanda inflyasiya gücü zəifləyib yekunlaşır. Belə ki, proqnozlaşdırılan inflyasiya dəhlizinə daxil olmuşuq. Münaqişənin davam edəcəyi təqdirdə, proqnozdan da kənar inflyasiya vəziyyəti ilə qarşılaşa bilərik".

*Münaqişənin davam edəcəyi təqdirdə, proqnozdan da kənar inflyasiya vəziyyəti ilə qarşılaşa bilərik*

✍ ***Sevinc***

# Naxçıvanda K.İ.Çukovski ilə bağlı kitab nəşr olunub

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Bilik Fondu tərəfindən "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində tanınmış publisist-politoloq Reyhan Mirzəzadənin "Korney İvanoviç Çukovski" kitabı nəfis tərtibatda işıq üzü görüb. Hafta.az xəbər verir ki, bu il dünya uşaq ədəbiyyatının ən görkəmli nümayəndələrindən biri, yəhudiəsilli rus yazıçısı, şairi Korney İvanoviç Çukovskinin anadan olmasının 140 illiyi qeyd olunur. Bu münasibətilə nəşr olunan kitabda K.İ.Çukovskinin həyat və yaradıcılığı, əsərlərinin dünyəvi əhəmiyyəti barədə ətraflı məlumat verilib.**




Ədəbiyyatşünas-alim, tərcüməçi, memuarçı, tənqidçi, dilçi, ictimai xadim, filologiya elmləri doktoru, Oksford Universitetinin fəxri ədəbiyyat doktoru Çukovskinin bir sıra şeir, poema və nağılları rus uşaq ədəbiyyatının Qızıl Fonduna daxil edilib. Fəlsəfi, ideya-tərbiyəvi əhəmiyyəti ilə həm xalqın tarixi inkişaf mərhələsinin, həm də müasir dövrün tələbləri mövqeyindən çıxış edən və gələcək nəsillər üçün faydalı ədəbiyyat xəzinəsi yaradan Çukovski irsi bütün dünyada sevilə-sevilə öyrənilməkdədir. Dünya uşaq ədəbiyyatı balacaların qəlbində nəcib hisslər oyadan, zərif duyğularını mənzum və mənsur əsərlərlə işıqlandıran, onların gələcəyi haqqında gözəl və ümidli arzularına qanad verən bir ədəbiyyat sahəsidir. Bu gün bu səmimi ədəbiyyat daha aktualdır. Necə deyərlər, "uşaqların üzü elə gülsün ki, mərmilər utanıb geri qayıtsın". Uşaq psixologiyasını öyrənmək və onların dili mənimsəmə prosesinin dərki Korney Çukovskinin həyatında mühüm nəticələri olan bir həvəs və maraq idi. Korney Çukovski uşaqları çox sevər və özünü bütün varlığı ilə onlara həsr edərdi. Cəmiyyətdə saxtakarlığa, savadsızlığa, özündənrazı meşşan kütlüyünə qarşı Korney İvanoviç daim mübarizə aparıb, bu mövzuda kəskin məqalələri çap olunub. O, müasir ədəbiyyatdakı bütün yenilikləri, orijinal düşüncə tərzini, böyük ümidləri müdafiə və təqdir edib.

Qeyd etmək lazımdır ki, Korney Çukovskinin atası Emanuil Levenson vaxtı ilə Bakıda yaşayıb və burada işləyib. Məzarı Bakıda olan E.Levenson "Qurd qapısı"ndakı qəbiristanlıqda dəfn olunub.

Burada üç yan-yana məzarda - solda Emanuil Solomonoviçin qızı Henrietta Levenson-Roxlina, ortada Çukovskinin atası, sağda isə onun zövcəsi Klara Levenson uyuyur. Çukovskinin uşaqlar üçün yazılmış şeir və nağıllarını böyüklər də sevə-sevə mütaliə edirlər. O, uşaq şeirinin nəzəriyyəsini yaradıb, bu şeirin qrafik təsvir üsulunu, ritmikliyini, musiqiliyini və orijinallığını əsaslandıra bilib.

Uşaqlar üçün Korney Çukovski ilk dəfə 1915-ci ildə yazmağa başlayıb, "Timsah" poemasını ərsəyə gətirib. Ardınca uşaq nağılları - "Moydodır", "Tarakancığaz", "Milçək-vizilçək", "Barmaley", "Telefon" nağıllarını - uşaq ədəbiyyatının solmaz incilərini yaradıb. Çukovski xarici müəlliflərin əsərlərinin tərcüməsi ilə də məşğul olub. Yazdığı uşaq nağılları ilə demək olar eyni vaxtda onun tərcüməsi ilə Kiplinqin "Nağıllar"ı, "Tom Soyyerin macəraları", "Heklberri Finnin macəraları" da işıq üzü görüb. S.Obraztsovun sözləri ilə desək, "Əgər Çukovskinin uşaq qəlbinə doğru saldığı cığırları uc-uca calasaq, bu yol Aya qədər çatar".

***Bu** göstərici Ayətxan Ziyadın peşəkar jurnalistikada ilk qələm nümunəsinin mətbat səhifələrində göründüyü 1969-cu ilin avqust ayı deməkdir. Hansı ki, həmin il orta məktəbi bitirən 18 yaşlı Ayətxan Əlibayramlı (indi Şirvan) şəhər Partiya Komitəsinin orqanı olan "İşıq" qəzetində dərc etdirdiyi iki məqalə ilə Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) jurnalistika fakültəsinə sənəd vermək hüququ əldə etmiş və həmin fakültənin tələbəsi olmuşdur. Əslində isə Ayətxan Ziyadı jurnalistikaya istiqamətləndirən yolun yaşı daha əvvəlki illərdən - orta məktəbdən bünövrə götürüb. Əvvəlcə oxuduğu sinfin, sonra isə şagirdi olduğu Hacıqabul 9 saylı dəmir yol orta məktəbin "Ədəbiyyat" divar qəzetinin redaktoru olub. Ayətxan Ziyadın peşəkar yazıçı-jurnalist, tədqiqatçı ömrünü üç mərhələdə təsnifatlandırmaq olar:*

# "And olsun qələmə" və insan ömrü

***(Ayətxan Ziyad İsgəndərov haqqında)***




- 1969-2001-ci illər. Bu illərin əhatəsində öncə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində (indi qapalı səhmdar cəmiyyət), sonra müxtəlif respublika qəzet və jurnallarda çalışmış, yaxud çap olunmuşdur;

- 2001-ci ildən yaradıcılığına kitab nəşri də daxil olmuşdur. "Sənsiz, yaxud Arifsizlikdə ötən ömür" kitabı ilə açılan bu səhifə bu gün də uğurla davam etdirilməkdədir;

- 2015-ci ildən bu ömürə elmi tədqiqatla məşğul olmaq kimi bir missiya da əlavə olunmuşdur. Yola salıdığı son 6 ildə 60-dan artıq beynəlxalq və respublika elmi konfransına qatılmış, oxucularına 6-dan artıq monoqrafiya və dərs vəsaiti ərməğan etmişdir.

Bir cəhəti xüsusi qeyd olunmalıdır ki, Azərbaycan ədəbiyyatında və jurnalistikasında "dissident ədəbiyyatı" və "Azərbaycan səlcuqları" mövzuları ilk dəfə A.Ziyad tərəfindən tədqiqata cəlb edilmişdir. "Heydər Əliyev - azad düşüncənin və milli təfəkkürün təəssübkeşi" məqaləsində ümummilli lider Heydər Əliyevin dissident ədəbiyyatı ilə bağlı düşüncələri və mövqeyi önə çıxarılmışdır. Məqalə "Paritet" qəzetinin, "İpək yolu" elmi jurnalının və "Azərbaycan" jurnalının 2008-ci il saylarında dərc olunandan sonra ilk dəfə "Space" TV (daha sonra digər TV-lər də) bu mövzuda verilişlər səsləndirməyə başlamışlar.

Bu məqam üçün gəlin tanış olaq:

Kimdir Ayətxan Ziyad İsgəndərov?

Bu sualı ilk olaraq "Bu mənəm - Ayətxan Ziyad" kitabında yazıçı-jurnalist, tədqiqatçının özü cavablandırmışdır. Kitab 5 bölümdən ibarətdir: 1. "Mən kiməm?"; 2. "Ayətxan Ziyad dostların, qələm yoldaşlarının deyimlərində"; 3. a) "Kitabları haqqında yazılmışdır", b) "Haqqında söz yazdığı kitablar"; 4. "İnsanın doğum tarixinin sirləri" və "Yaddaşları yaşadır fotolar".

**Qısa arayış**

1951-ci il oktyabrın 15-də Hacıqabul şəhərində anadan olmuş, 1969-cu ildə orta təhsilini başa çatdırməşdır. ADU-nun (indiki BDU-nun) jurnalistika fakültəsinin 1975-ci il məzunlarındandır. Tələbəlik illərində Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsinin (indi QSC) ştatdankənar müxbiri (1970-1976) olaraq yaradıcılıqla məşğul olmuşdur. 1975-1976-cı illərdə Azərbaycan Kənd Təsərrüfatı Nazirliyinin nəşriyyatında, 1976-1994-cü illərdə Azərbaycan Dövlət Televiziya və Radio Verilişləri Komitəsində kiçik redaktor, redaktor, böyük redaktor-şöbə müdiri vəzifələrində çalışmışdır. 1994-cü ilin yayından sonrakı zaman kəsiyində "Ədalət" qəzetində, "Azərbaycan məktəbi" jurnalında, "Respublika", "Naxçıvan" və "Yeni Naxçıvan", "Həftə içi", "Hakimiyyət və Xalq" qəzetlərində, 15.09.2004 - 03.04.2006-cı illərdə AMEA-nın İnsan Hüquqları İnstitutunda elmi işçi və paralel olaraq institutun nəşri olan "Dirçəliş-XXI əsr" elmi jurnalında (analitik-İnformasiya Mərkəzinin rəhbəri) vəzifələrində çalışmışdır.

A.Ziyad İsgəndərovun 2007-ci ildən sonrakı fəaliyyəti ADPU ilə bağlı olmuşdur. Yanvar 2007 - fevral 2015-ci illərdə "Gənc müəllim" qəzetinin redaktoru olmuşdur. 2015-ci ilin martından ADPU Elmi-Tədqiqat Mərkəzinin elmi işçisidir.

AzTV-də işlədiyi 25 il müddətində Azərbaycan LKGİ MK (VLKSM MK) Komsomol Projek□toru Qərargahının üzvü, AzTV Azad Həmkarlar Komitəsinin üzvü, AzTV Bağçılıq-bostançılıq təsərrüfatının sədri, AzTV DOSAAF-n sədri, AzTV Xalq Drujinası Qərargahının sədri (və s.) ictimai işlərdə çalışmışdır;

- 1979-cu ildə Gənc Jurnalistlərin II Ümumittifaq Qurultayının nümayəndəsi olmuşdur (Moskva şəhərində keçirilmişdir), Ümumittifaq Teleradio Verilişləri Komitəsində (Moskva) yaradıcılıq təcrübəsi keçmiş, kosmonavtların Baykanur Kosmodromunda (Moskva) olmuşdur;

- Qarabağ Müharibəsinin ilk günlərindən ATƏŞKƏSƏ qədər - 6 il sərasər hər ay 7-10 gün cəbhə bölgələrində olmuş, Azərbaycan ordusunun döyüş yolunu tarixiləşdirən efir materialları ilə çıxış etmişdir.

- AzTV-də Hərbi Proqramlar və Salnamə baş redaksiyası yaradılmasının təşəbbüskarı olmuşdur.

- 2000-ci il parlament seçkilərində deputatlığa namizəd olmuşdur.

- "XX əsr Azərbaycan yazıçıları" ensiklopediyasında barəsində yazılmışdır.

- Haqqında vikipediya yaradılmışdır.

1980-ci ildən SSRİ Jurnalistlər İttifaqının, 2010-cu ildən Azərbaycan Jurnalistlər Birliyinin, 2015-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür.

İki əsrin mükafatları:

- 1980-ci ildə Azərbaycan LKGİ MK-nın Fəxri Fər□manını almışdır;

- Azərbaycanlı əsgər Rahib Məmmədova həsr etdiyi "Əfsanəyə dönən ömür" adlı radio verilişi pul mükafatı və əmək kitab□çasına yazılmaqla dəyərləndirilmiş, radio verilişinin məqalə variantı "Ölməzlik" toplusunda nəşr edilmişdir (Bakı-Azərnəşr-1989. Səh: 60-67).

- Hərbi-vətənpərvərlik mövzusunda yazan jur□nalistlərin yaradıcılıq müsabiqəsində "Ədalət" qəzetinin xüsusi mükafatını almışdır;

- 2012-ci ildə «Əsrin ziyalıları» Xeyriyyə İctimai Birliyinin «İlin alimi - İlin ziyalısı» diplomuna,

- 2019-cu ildə "Qafqaz-Media" İB-nın təsis etdiyi "İlhamlı Azərbaycan" diplomuna,

- 2021-ci ildə "Ziyadar" Mükafatına layiq görülmüşdür. Nəşr olunmuş 16 kitabdan 6-sı monoqrafiya, 1-i dərs vəsaitidir. Daha 2 monoqrafiya nəşr üçün hazırdır.

ETM-də uşlədiyi 6 il ərzində 60-dan artıq beynəlxalq və respublika elmi konfransında, həmçinin 4 seminarda məruzə ilə çıxış etmiş, müvafiq sertifikatlara layiq görülmüşdür, elmi məqalələri konfrans materiallarında dərc edilmişdir. Seminarlardan biri AMEA-nın Dilşilik İnstitutunda olmuşdur.

İşıq üzü görmüş kitabları:

1. "Sənsiz, yaxud Arifsizlikdə ötən ömür". Bakı-2001, 400 səh.

2. "Mən□dən sonra...". Şeir, hekayə, publisistika.

Bakı-"ULU"-2010, 616 səh.

3. "Qazyanlı Mirhəbi ağa. ADPU-2010, 132 səh. (araşdirma xarakterlidir).

4. "Qazyanlı Mirhəbi ağa" (təkrar nəşr). Bakı-"ULU"-2010, 149 səh. (araşdirma xarakterlidir)

5. "Hər hökmü zaman verir". Kiçik povestlər. Bakı-2010, 100 səh.

6. "Şamaxının Kürdəmic kəndi. Tarix, publisistika, rəvayət".

Bakı-2014, 70x100 1/16, 536 səh. Monoqrafiya.

7. "ADPU-da qalan izim". Bakı-2014, 400 səh.

8. "Heydər Əliyev - xalqının, dövlətinin qürur ünvanı". Bakı-2018. 168 səh. Monoqrafiya.

9. "Dədə Qorqud" ünvanında sözüm" (el□mi məqalələr. Mart 2015-2017-ci il).

Bakı-"ULU"-2018. 268 səh. Monoqrafiya.

10. "Heydər Əliyev və ədəbiyyat məsələləri: Azərbaycan ədəbiyyatının, mədəniyyətinin... - dövlətinin hamisi". Bakı-2018. 104 səh. Dərs vəsaiti.

11. "Heydər Əliyev və ədəbiyyat məsələləri: Azərbaycan ədəbiyyatının, mədəniyyətinin... - dövlətinin hamisi". Dərs vəsaiti. "LAMBERT Akademic Publishing" nəşriyyatı - 2018, 92 səh.; İSBN-13: 978-613-9-88091-1 və İSBN-10: 613-98800912.

12. "Ömrüm bir yaşıl yarpaq, rəngləri mənimkidi. (heka□yə, povest, kino-ssenari, şeir)". İKSAD yayın evi - 2019, 463 səh.

13. Zaur Ustacın uşaq dünyası. Bakı-2021, 58 səh. Elmi məqalələr.

14. Azərbaycan mətbuatı tarixi. Z.Xəlil, P.Soltanqızı,A.Z.İsgəndərov.

Bakı-"Elm və təhsil"- 2021, 132 səh. Monoqrafiya.

15. Bu mənəm - Ayətxan Ziyad. Bakı-2021. 400 səh.

16. Zahid Xəlilin poetik obrazları ədəbi tənqid müstəvisində. 200 səh. Monoqrafiya.

17. Elmi mübahisələr: mülahizələr, qənaətlər.

Nəşrə hazır daha 9 kitabı vəsait çatışmazlığına görə uzun illərdir işıq üzünə həsrət qalıb.

Ayətxan Ziyad İsgəndərov bu gün də sutkanın 16-18 saatını yorulub-usanmaq bilməyən enerji ilə qələmə sarılıdır. Bu, şablon, söz xatirinə deyilən söz deyil, söylənilənləri fakt olaraq Ayətxan Ziyadı tanıyıb-bilənlərin hamısı görür, bilir.

Bütün bu əzmkarlıq, qələmə fəda edilmiş 53 il qarşılığında imkanlarımız daxilində Ayətxan müəllimin fədakarlığını qiymətləndirməyə çalışmışıq. Belə ki, tərəfimizdən elmi araşdırmaçılıq fəaliyyətinə görə "Vintsas", 53 illik ədəbi-bədii yaradıcılığı nəzərə alınmaqla "Bayram Bayramov" mükafatlarına layiq görülmüşdür. Yuxarıda yazımın "Qısa arayış" bölümündə qeyd olunduğu kimi, Ayətxan müəllimin doğum günü 15 oktyabrda olacaq qarşıda qosqoca iki ay var bu münasibətlə imkanlı şəxsləri nəşrə hazır kitablarının çapşna dəstək olmağa, əlaqədar təşkilat və qrumları isə onun qələmə, yazıya xərclədiyi günlərin xoş xatirəsi ola biləcək əlamətdar işlər görməyə çağırıram. Söna qədər həmsöhbət olduğunuza görə təşəkkür edir və söhbətimi artıq çoxdan Haqqın dərgahına varmış digər dəyərli ziyalımız Cabir Novruzun ibrətamiz misraları ilə bitirmək istəyirəm:

***Sağlığında qiymət verin insanlara,***
***Yaxşılara sağ olanda yaxşı deyin,***
***Sağlığında yaman deyin yamanlara...***
***30.07.2022. Bakı.***

***Müəllif: Zaur USTAC,***
***"Yazarlar" jurnalının baş redaktoru,***
***şair-publisist***

# Elm və təhsilin inteqrasiyası

***Azərbaycan Elm və Təhsil Nazirliyinin yaradılması, Azərbaycan Milli Elmlər Akademiyasının sırf ictimai və humanitar elm sahələri institutlarından yenidən təşkil edilməsinin nəzərdə tutulması, ölkə ictimaiyyəti tərəfindən birmənalı qarşılanmır. Ekspertlər AMEA -da cərəyan edən son vəziyyəti müxtəlif aspektlərdə dəyərləndirir. Ümumən, bu prosesin elm və təhsilin inteqrasiyalı şəkildə inkişafına start verəcəyi deyilsə də, AMEA -nın bağlanma ehtimalı da önə çəkilir. Əslində aparılan islahat nəyə yönəlikdir?***



## Müzakirə

*“Dövlət bu islahatla Akademiyanın bağlanmasını deyil, onun yeni istiqamətdə inkişafını təmin etdi*

**■ AMEA-nın əməkdaşı, tarixçi-alim Qasım Hacıyev hafta.az-a açıqlamasında bildirib ki, illərdir, Elmlər Akademiyasının bağlanma ehtimalı ilə bağlı fikirlər tez-tez aktuallaşıb. Bu gün dövlət belə islahatlar aparmaqla Akademiyanın bağlanmasını deyil, onun yeni yol, yeni istiqamətdə inkişafını təmin etdi.**

“Təhsil və elm həmişə bir-biri ilə bağlı olub. Ona görə də elmdə olan nailiyyətləri təhsilə tətbiq etmədən inkişaf etmək mümkün deyil. Bütün dünya ölkələrinin bu sahədə təcrübəsi var. Bu, çox yaxşı haldır. Aparılan islahatlar dünyanın inkişaf tempi ilə əlaqələndirilməlidir. Elmin təhsillə birlikdə daha yaxından inteqrasiya etməsi hər ikisinin inkişafına təkan verə bilər”.

Q.Hacıyev hesab edir ki, AMEA-da aparılan islahatlarla bağlı əsas məsələlərdən biri odur ki, dünya ölkələrində son dövrlər iqtisadiyyatın yaxşılaşması, sosial inkişaf, böhrandan çıxmaqla bağlı müxtəlif layihələr həyata keçirilir.

“Təbii ki, islahat olmayan ölkədə inkişafdan danışmaq olmaz, çünki dünya dəyişir, yenilənir. Cəmiyyət yenilənməlidir. Ona görə də xalqın maddi rifahını yaxşılaşdırmaq üçün ən azı belə addımları müsbət hal hesab edirəm. Ümid edirəm, hamı bu prosesə həvəslə qoşulacaq. Dövlətimizin yaratdığı bu imkandan istifadə edərək, həm elm və təhsilin inkişafını təmin edəcəyik, həm də bu sahədə işləyən adamların əməyinin yüksək qiymətləndirilməsinə nail olacağıq. Biz buna daha çox inanırıq. Ona görə də dövlət başçımızın həyata keçirdiyi bu addımı alqışlayıram. Xeyirli-uğurlu olsun”.

“Azərbaycan Milli Elmlər Akademiyası müasir tariximizin dəyərlərindən biridir. Orada kimlərin işləməsindən, elmi tədqiqatların səviyyəsindən asılı olmayaraq, ictimai təsisatı birdən-birə yox etmək olmazdı. Ona görə də ölkə Prezidentinin imzaladığı sənəd çox ciddi islahatın əsasını qoydu”.

**■ Bunu hafta.az-a sosioloq-kulturoloq Aydın Xan Əbilov AMEA ətrafında aparılan son müzakirələrin mahiyyətini təhlil edərkən bildirib.**

A.X.Əbilov qeyd edib ki, Elmlər Akademiyasının ləğvini gözləyən bir çox şəxslərə rəğmən cənab Prezident elm və təhsili birləşdirəcək yeni bir islahatın başlanğıcını qoydu. Elmlər Akademiyasının bir çox tədqiqat institutları ya Mədəniyyət Nazirliyinin, ya da yenicə formalaşdırılmış Elm və Təhsil Nazirliyinin tabeliynə verildi.

“Elmlər Akademiyası Azərbaycan dövlətçiliyinin əsasını təşkil edir. Hər hansı bir dövlət öz təsisatları, elmi-texniki innovasiyalara açıq olması ilə tanınır. Bu baxımdan, AMEA-nın tarixi mövqeyi əvəzolunmazdır. Bu gün həm Elmlər Akademiyasının yeni nizamnaməsinin hazırlanması, həm də Elm və Təhsil Nazirliyinin formalaşdırılması ilə bağlı işlər aparılır”.

*“Bu gün Azərbaycanda təhsil və elmin səviyyəsi dünya standartlarına uyğun deyil*

A.X.Əbilov bildirir ki, bu gün Azərbaycanda təhsil və elmin səviyyəsi dünya standartlarına uyğun deyil. Onun fikrincə, istər sovet dövründə, istərsə də müstəqillik dönəmində bununla bağlı həmişə ictimai diskusiyalar, debatlar aparılıb. Bununla belə Azərbaycan vaxtilə fundamental elm sahələrinin, xüsusən də neftlə bağlı sənayenin inkişafına təkan verəcək tədqiqat işlərinə görə nəinki keçmiş SSRİ, həm də dünyanın aparıcı elm mərkəzlərindən biri sayılırdı.

“Son 30 ildə elmə, fundamental sahələrə diqqət azaldıqca bu sahələr zəifləməyə başladı. AMEA bunun günahını universitetlərdə, universitetlər isə AMEA-da axtarırdılar.

Bu gün alimlərimizin, tədqiqatçılarımızın günün tələblərinə uyğun işlər aparıb-aparmaması müzakirə oluna bilər. Bunu da rəqabətə davamlı, müsabiqə yönümlü, qrant yönümlü formata keçirməkə təsirini, fəaliyyətini gücləndirmək olar.

İstərdik ki, AMEA Elm və Təhsil Nazirliyinin tabeliyinə keçsə də, rəqabətədavamlı bir qurum kimi fəaliyyət göstərsin, nəinki tabe olduğu nazirliyə hesabat verən və nazirliyin yuxarı göstərişlərini yerinə yetirən ölü bir quruma çevrilsin”.

Sosioloq qeyd edir ki, keçmişdə AMEA-nın alimləri ilə universitetlər arasında çox böyük rəqabət var idi. Hətta Təhsil Nazirliyi ilə AMEA arasında çox ciddi, texnoloji rəqabət, bəzən savaş, bəzən davalar, yarışmalar var idi. Bu da Azərbaycan elmini inkişafa aparırdı. Nazirliyin tənbəl məmurları, universitetin liberal müəllimləri ilə Elmlər Akademiyasının oturuşmuş alimləri arasında rəqabət elmlərin inkişafına səbəb olmuşdu. İndi fundamental elmlər arxa plana keçib. Fundamental elmləri süni intellekt, kompüter texnologiyaları əvəzləyir. Bu mənada, alimləri də innovasiyalara, startaplara açıq olmalıdırlar. Yenilikləri biznesə çevirmək üçün yollar axtarmalıdırlar.

A.X.Əbilov Elmlər Akademiyasının şəhərin mərkəzində olan mülklərinə, torpaq sahələrinə diqqət çəkərək, bunların tariximizə, xalqımıza məxsus abidələr olduğunu qeyd edib. O, AMEA-nın bir çox müəssisələrinin ləğvolunma ehtimalını qorxulu məqam kimi qeyd edib. Eyni zamanda hansısa işbazların o torpaqları ələ keçirmək sevdasına düşməsini də istisna etməyib. Bir çox kitabxanaların ləğv olunaraq biznes məkanlarına çevrilməsi faktı üzərindən yaranan qalmaqalları qeyd edən A.X.Əbilov vaxt keçdikcə həmin şəxslərin cavabdehlik daşıyacaqlarını bildirib. Bütün bunlarla yanaşı, A.X.Əbilov hesab edir ki, Azərbaycanın böyük elmi potensialı var.

“Azərbaycan onu reallaşdırmaq üçün kiçik ölkədir. Biz Azərbaycanı elmi potensialı və elmi texnologiyaları xammal kimi xaricə ixrac edən dövlətə çevirə bilərik. Bununla yanaşı, ictimai nəzarət sistemi olmalıdır. Təhsil Nazirliyinin də kifayət qədər problemləri var. Yeni qurumları da onlara verməklə bir qədər onları yükləmiş oluruq. İctimai nəzarət yoxdursa bu, xaosa apara bilər...”.

*✍ Tahirə Qafarlı*

# “Azercell” genişmiqyaslı layihəyə start verdi ®

**Abunəçilərinin dinamik şəkildə artan ehtiyaclarını nəzərə alan Azercell ölkə boyunca 4G (LTE) şəbəkəsinin əhatə dairəsinin genişləndirilməsi və ötürmə qabiliyyətinin artırılması üzrə daha bir irimiqyaslı layihəyə start verdi. Bu proqram çərçivəsində növbəti 18 ay ərzində 300-dən çox yeni baza stansiyanın quraşdırılması və 1600-ə yaxın mövcud stansiyanın təkmilləşdirilməsi nəzərdə tutulur. Beləliklə, ölkənin aparıcı mobil operatorunun LTE stansiyalarının ümumi sayı 3200-ü ötəcək.**




Layihənin icrası nəticəsində Azercell-in 4G şəbəkəsinin tutumu Bakı və Abşeron yarımadasında 80%, rayonlarda isə 75% artacaq! Bu da, öz növbəsində, abunəçiləri yüksək ötürülmə sürəti, göstərilən xidmətlərin keyfiyyətinin yüksəldilməsi, eləcə də sosial şəbəkələr, multiplayer oyunları, interaktiv onlayn proqramlar, videokonfranslar, video zənglər və bir çox digər rəqəmsal həlləri özündə cəmləşdirən multimedia xidmətlərinə sürətli çıxış imkanı ilə təmin edəcək.

Azercell-in şəbəkənin genişləndirilməsi və modernləşdirilməsi layihəsi işğaldan azad edilmiş əraziləri də əhatə edir. Vətənə geri qaytarılan torpaqlarımızda ilk mobil infrastrukturu qurmağa müvəffəq olan Azercell, Şuşa, Ağdam, Füzuli, Cəbrayıl, Zəngilan, Qubadlı, Kəlbəcər rayonları, İstisu, Hadrut, Suqovuşan qəsəbələri, Xocavənd və Laçın rayonlarına aid bir çox kənd və digər əraziləri öz şəbəkəsi ilə əhatə edib. Qeyd olunan rayonlarda Azercell artıq 80-dan çox baza stansiyası quraşdırıb və bu istiqamətdə apardığı işləri planlı şəkildə davam etdirməkdədir.

Onu da qeyd edək ki, operator ötən il 4G (LTE) yüksəksürətli mobil interneti Bakı Metropoliteninin bütün stansiya və tunellərində əlçatan edib.

Azercell öz infrastrukturunun genişləndirilməsi və modernləşdirilməsinə sərmayə yatırmağı davam edəcək. Bu, şirkətə Azərbaycan bazarında yeni nəsil texnologiyaların tətbiqi üçün zəruri platformanı təmin etməyə imkan verəcək. Eyni zamanda, Azercell aktiv şəkildə telekommunikasiya sənayesinin ən son tendensiyalarına cavab verən məhsul və rəqəmsal həlləri ərsəyə gətirməyi davam edir.

## HƏFTƏ REYTİNQ

### Həftənin GÖRÜŞÜ



Daşkənddə Azərbaycan, Türkiyə və Özbəkistan xarici işlər, ticarət/iqtisadiyyat və nəqliyyat nazirlərinin birinci üçtərəfli görüşü keçirilib. Görüşdə Azərbaycanı xarici işlər naziri Ceyhun Bayramov, iqtisadiyyat naziri Mikayıl Cabbarov və rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev təmsil edib.

### Həftənin MAAŞI



Milli Məclisin deputatı Tahir Mirkişili millət vəkillərinin maaşlarının artması məsələsinə aydınlıq gətirib. Parlamentin İqtisadi Siyasət, sənaye və sahibkarlıq komitəsinin sədrinin sözlərinə görə, deputatların maaşının 61 faiz artması ilə bağlı yayılan xəbərlər həqiqəti əks etdirmir. O, bu artımın 33 faiz təşkil etdiyini vurğulayıb: “Yazılarda deputatların aylıq maaşının artaraq 4052 manatdan 6537 manata çatdığı iddia olunur. Deputatın artıma qədər ümumi (vergi və digər yığımlar ödənmədən) aylıq vəzifə maaşı 1733 manat idi, artımdan sonra isə 2491 manat olub. Deputatın əvvəl aldığı vəzifə maaşının 1 misli qədər əlavə, 50%-i qədər vergidən azad pul təminatı, illik 2 misli qədər müavinət və illik 2 misli qədər məzuniyyət pulları ləğv olundu.

### Həftənin TERRORÇUSU



“Əl-Qaidə” terror təşkilatının başçısı Ayman əl-Zəvahiri öldürülüb. Bunu açıqlamasında ABŞ Prezidenti Co Bayden təsdiqləyib. Adının çəkilməsini istəməyən Bayden administrasiyasının yüksək rütbəli rəsmisi isə ABŞ kəşfiyyatı tərəfindən Ayman əl-Zəvahirin yerinin bu ilin əvvəlində müəyyən edildiyini bildirib. Onun sözlərinə görə, aylarla onun hərəkətləri izlənilib və ailəsi ilə birlikdə Kabildə təhlükəsiz evdə yaşadığı müəyyən edilib. Qeyd edək ki, 71 yaşlı Ayman Əl-Zəvahiri ABŞ-da törədilən 11 sentyabr terror aktının təşkilatçısı olaraq bilinirdi. O, Usamə bin Ladenin məhv edilməsindən sonra “Əl-Qaidə”yə rəhbərlik edirdi.

### Həftənin ÖLÜSÜ



SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin (DTK) sonuncu sədri, 84 yaşlı Vadim Bakatin Moskvada vəfat edib. Qeyd edək ki, 1988-ci ildə Mixail Qorbaçov ona daxili işlər naziri vəzifəsini təklif edib və o, DİN rəhbəri olub. Bakatinin dövründə DTK bir neçə müstəqil xüsusi xidmət orqanlarına bölünüb. Lakin Bakatin buna qarşı olub. Xatırladaq ki, Vadim Bakatin 1990-cı ilin yanvarın 19-dan 20-sinə keçən gecə Bakıya qoşun yeridilməsinin əmrini verən şəxslərdən biri olub. Əməliyyata rəhbərlik etmək üçün həmin vaxt daxili işlər naziri olan Bakatin SSRİ Müdafiə Nazirliyinin Bakıda yerləşən hərbi qərargahında olub.

### Həftənin GEDİŞİ



“Mixail Saakaşvili siyasətdən gedir və özünün yaratdığı “Vahid Milli Hərəkat” partiyasını tərk edir”. Bu barədə onun vəkili Valeri Qelbaxiani bildirib: “Siyasətdən getməsinin əsas səbəbi onun həyatını qorumaq və xilas etməkdir. İndi söhbət onun həyatından gedir, siyasətdən yox”. Qeyd edək ki, Saakaşvili hazırda Tbilisidəki “Vivamed” özəl klinikasında müalicə olunur.

### Həftənin ÜZRÜ



Hollivud ulduzu Uill Smit mart ayında “Oskar” kino mükafatının təqdimetmə mərasimi zamanı yaşanan insidentə görə üzr istəyib. Uill Smit tədbirin aparıcısı aktyor Kris Roka şillə vurmasına görə üzr istəyib və bununla bağlı video lentə alıb. Smit öz davranışının yolverilməz olduğunu vurğulayıb. O bildirib ki, Kris Rokla əlaqə yaradıb və onunla görüşməyi xahiş edib. K.Rok isə görüşdən imtina etsə də, Smitlə danışmağa hazır olduğu zaman bunu dilə gətirəcəyini qeyd edib. Xatırladaq ki, sözügedən insident martın 28-i Los-Ancelesdə 94-cü “Oskar” kino mükafatının təqdimetmə mərasimi zamanı baş verib.

*✍ Azad Əliyev*

## GÜNÜN FOTOSU



**İstanbulda Ukraynadan taxıl yükü ilə gələn ilk gəmiyə baxış keçirildi**

“

# Partiyalar büdcədən maliyyələşsin

**Arzuxan Əlizadə,**
Azərbaycan Milli İstiqlal Partiyasının (AMİP) sədri

Siyasi partiyaların qeydiyyatdan keçməsi ilə bağlı məsələlər sadələşdirilməlidir. ▸▸ Səh. 5

## STATİSTİKA



**■ Cari il iyunun 1-i vəziyyətinə muzdla çalışan işçilərin sayı 1706 min nəfər, o cümlədən iqtisadiyyatın dövlət sektorunda 903,5 min nəfər, qeyri-dövlət sektorunda isə 802,5 min nəfər təşkil edib.**

İqtisadiyyatın neft-qaz sektorunda 30,9 min nəfər, qeyri-neft-qaz sektorunda isə 1675,1 min nəfər çalışıb. Müəssisə və təşkilatlarda muzdla çalışan işçilərin 23,5 faizi məhsul istehsalı sahələrində, o cümlədən 7,5 faizi tikintidə, 7,1 faizi emal sənayesində, 3,5 faizi kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq sahələrində məşğul olub.



▸▸ Səh. 4

# ABŞ hər zaman Qarabağ məsələsinin bitməsini istəyib